Xalqın qəzeti!

# Xalq qəzeti

№ 147 (30263) 16 iyul 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir.

# Azərbaycan sülh prosesinə sadiqdir

## Prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə üçtərəfli görüşü olub



İyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olub.

(ardı 2-ci səhifədə)

# "Demokratiya və Milli Birlik Günü" Türkiyə dövlətçiliyinin tarixində böyük şərəf günü olaraq qalacaqdır

*Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana*



**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

Türkiyədə 15 İyul hadisələrinin yeddinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Türkiyə Respublikasına qarşı yönəlmiş bu xain plan ölkənizin tarixində çətin sınaq idi. Bu sınaqdan alnıaçıq və üzüağ çıxan Türkiyə xalqı bütün dünyaya iradəsinin sarsılmazlığını, mətinliyini, dövlətçiliyə və demokratiyaya sadiqliyini bir daha bariz şəkildə nümayiş etdirdi. Həmin ağır gündə çiyin-çiyinə vermiş Türkiyə xalqı və dövlətinin qətiyyəti sayəsində, şəhidlərimizin qanı və canı bahasına əldə edilmiş bu zəfər xalqınızın bənzəri olmayan mübarizlik və yenilməzlik ruhunu, Vətənə sevgisini təsdiq etdi. Həmrəyliyin və milli birliyin rəmzi olaraq təsis olunmuş "Demokratiya və Milli Birlik Günü" Türkiyə dövlətçiliyinin tarixində böyük şərəf günü olaraq qalacaqdır.

Heç şübhəsiz ki, əsl qəhrəmanlıq dastanının yazıldığı o gün qardaş Türkiyə xalqının Sizə olan hədsiz inam və etimadın aşkar təzahürü olaraq ətrafınızda sıx birləşməsi, Sizin çağırışınıza dərhal cavab verməsi xain niyyətlərin qarşısına aşılmaz sipər çəkərək ölkənizi böyük faciələrdən xilas etdi.

Azərbaycan xalqı və dövləti bu mücadilədə ilk anlardan qardaş Türkiyə dövlətinin və xalqının yanında olmuş, ölkənin Konstitusiya quruluşuna, legitim hakimiyyətinə qəsd edən Vətən xainlərini birmənalı şəkildə pisləmişdi. Biz bu hadisələrdən daha da güclənərək çıxmış Türkiyə xalqının zəfərini öz zəfərimiz, sevincini öz sevincimiz, hüznünü öz hüznümüz olaraq paylaşdıq və bir millət, iki dövlət olduğumuzu bir daha əyani şəkildə sübut etdik.

Əminəm ki, ən böyük sərvətimiz olan sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığını, birliyini və həmrəyliyini qoruyub saxlamaq və gələcək nəsillərə ərməğan etmək, strateji müttəfiqliyimizi hərtərəfli inkişaf etdirmək və möhkəmləndirmək naminə birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyul 2023-cü il**

# Türk xalqının demokratiyaya sahib çıxdığı gün



Səhifə ⇨ 4

# Sülhün qum saatı: sonuncu dənələr harada düşəcək?



**Bu dəfə Belçika paytaxtından müsbət xəbərlərin gələcəyinə ümidlər daha çox idi. Çünki Aİ Şurasının rəhbəri Şarl Mişelin Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında təşkil etdiyi üçtərəfli görüş əvvəlcədən elan olunduğu vaxtdan altı gün tez baş tutdu. Elə bu faktın özü sülh danışıqlarının növbəti raundunun konkret nəticə ilə, yeni tərəflər arasında hansısa sənədin imzalanması ilə yekunlaşağını proqnozlaşdırmağa əsas verirdi.**

Üçtərəfli görüşdən bir gün əvvəl – iyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığına işgüzar səfərə gedib. İkitərəfli görüş çərçivəsində İlham Əliyev Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində Şarl Mişelin göstərdiyi səylərə görə ona təşəkkürünü bildirib, Brüssel formatının səmərəli olduğunu vurğulayıb. Üç saat davam edən söhbət əsnasında tərəflər Nikol Paşinyanın iştirakı ilə keçiriləcək üçtərəfli danışıqlar, həmçinin Ermənistan ilə Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparıblar.

Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin Aİ Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşündə bir daha Azərbaycanın ərazi bütövlüyünə hörmət ifadə edilib. Bunu Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyanla görüşdən sonra mətbuata bəyanatında Şarl Mişel bildirib. O, qeyd edib ki, görüşdə hər iki ölkənin – Ermənistanın 29,8 min kvadratkilometr və Azərbaycanın 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyü və suverenliyinə hörmət ifadə edilib. "Bugünkü görüş çox məhsuldar keçib". "Report"un Brüsselə ezam olunmuş əməkdaşının verdiyi məlumata görə, bu sözləri Aİ Şurasının Prezidenti Şarl Mişel deyib. "Biz altıncı görüşü yenicə başa vurduq. Bu, çox məhsuldar oldu. Biz səylərimizdə çox mühüm dövr keçirik", – deyən Ş.Mişelin sözlərinə görə, görüş zamanı iki ölkənin lideri 1991-ci il "Almatı Bəyannaməsi"nə, eləcə də ölkələrin ərazi bütövlüyü və suverenliyi prinsipinə sadiq qaldıqlarını təsdiqləyiblər.

Məlumatda o da qeyd olunur ki, tərəflər arasında müzakirə olunan məsələlərin həlli istiqamərində işin sürətləndirilməsi barədə razılıq əldə edilib. Prezidentin Mətbuat Xidmətinin yaydığı məlumata əsasən, bununla da İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatıb.

(ardı 6-cı səhifədə)

# Orta Dəhlizdə daşımaların şəbəkəsi genişlənir




**Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasına xidmət etməklə region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.**

2023-cü ilin yanvar-iyun aylarında Orta Dəhlizin Azərbaycan seqmenti üzrə yükdaşımaların həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,8 dəfə və yaxud 77,2 faiz artaraq 1 milyon 325 min ton təşkil edib.

(ardı 7-ci səhifədə)

# Ədəbiyyat və publisistikamızda deportasiya ağrısı



Səhifə ⇨ 9

# Erməni kilsəsi sülhün Brüssel formatına qarşı

Səhifə ⇨ 3



# BQXK-nın "vəkili" peyda oldu



**Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq, aprelin 23-də Ermənistanla şərti sərhəddə, Laçın–Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratması çoxlarının yuxusuna haram qatıb. Halbuki Azərbaycan qeyri-adi bir iş görməyib, beynəlxalq norma və qaydalara uyğun olaraq, qonşu ölkə ilə sərhədində nəzarət-buraxılış məntəqəsi yaradıb. Bu məntəqə ilə Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli şəxslərin hər iki tərəfdən maneəsiz gediş-gəlişi təmin edilib.**

(ardı 6-cı səhifədə)

# Prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə üçtərəfli görüşü olub



*(əvvəli 1-ci səhifədə)*

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh prosesi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qanunsuz hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Brüsseldə keçirilən bu danışıqlar Vaşinqton görüşünün davamı kimi qiymətləndirilib.

***AZƏRTAC***

# Şarl Mişelin mətbuata açıqlaması

**Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.**

**Şarl Mişel açıqlamasında deyib:**

– Prezident Əliyev və baş nazir Paşinyanla altıncı görüşü indicə yekunlaşdırdıq. Bizim müzakirələrimiz yenə də səmimi, dürüst və məzmunlu oldu. Görüşümüz mayın əvvəlindən Ermənistan və Azərbaycan liderləri, baş nazirlərin müavinləri və xarici işlər nazirləri arasında Brüsseldə, Kişineuda, Vaşinqtonda, Moskvada, həmçinin sərhəddə intensiv və məhsuldar keçirilən yüksək səviyyəli görüşlər silsiləsinin davamı oldu.



Biz Ermənistan ilə Azərbaycan arasında danışıqların ən əhatəli və mürəkkəb mərhələlərindən birini keçirik. Mən liderləri sülh prosesinə güclü sadiqliklərinə görə təqdir etdim. Mən onları normallaşma yolunda qəti və dönməz irəliləyişi təmin etmək üçün daha cəsarətli addımlar atmağa çağırdım. Baxmayaraq ki, görüşümüz gərginliyin artması fonunda baş tutdu, mən siyasi müzakirələrdə və səylərdə mühüm irəliləyiş olduğunu qeyd etdim.

Biz gündəlikdə olan bütün məsələləri müzakirə etdik.

**Suverenlik və ərazi bütövlüyü.** Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqlədilər.

**Sərhədlərin delimitasiyası.** Hər iki lider delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə birmənalı sadiqliklərini bir daha təsdiq etdilər.

Mən hər iki sərhəd komissiyasının 12 iyul tarixli iclasını alqışladım. Bu komissiyaların nizamnaməsi və sərhədlərin müəyyənləşdirilməsinin əsasları ilə bağlı müzakirələrdə irəliləyiş əldə edilib.

Ən mühümü isə odur ki, liderlər komissiyaların işini intensivləşdirmək və sürətləndirmək barədə razılığa gəliblər.

**Kommunikasiyalar.** Bu məsələyə gəldikdə, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail olublar. Biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə cavab verən gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik.

Dəmir yolu xəttinin tikintisinə dərhal başlanılmalıdır. Avropa İttifaqı maliyyə töhfəsi verməyə hazır olacaq. Bəzi detallar hələ də aydınlaşdırma tələb edir, lakin bu mövzuda indi mövqelər yaxınlaşır və variantlar fəal şəkildə araşdırılır.

**Humanitar yardımlar.** Qarabağın erməni əhalisinin vəziyyətini, Laçın dəhlizi ətrafında vəziyyəti müzakirə etdik. Aydındır ki, mövcud vəziyyət dayanıqlı deyil və heç kimin marağına uyğun gəlmir. Vəziyyətin normallaşmasına kömək üçün mümkün konkret addımları da müzakirə etdik.

Mən Laçın yolunun açılmasının vacibliyini vurğuladım. Mən Azərbaycanın Ağdamdan humanitar yardımları təmin etmək istəyini də qeyd etdim. Mən hər iki variantı vacib hesab edirəm və əhalinin ehtiyaclarının təmin olunması üçün hər iki tərəfdən humanitar yardımların çatdırılmasını dəstəkləyirəm.

Mən, həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən tibbi təxliyənin bərpasını da alqışladım.

**Hüquqlar və təhlükəsizlik.** Yerli əhalinin ilk növbədə hüquqlarının və təhlükəsizliyinin təmin olunmasına ehtiyacı var.

Mən bu kontekstdə Avropa İttifaqının Bakı ilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin nümayəndələri arasında birbaşa dialoqu dəstəklədiyini bildirdim.

Bu dialoq bütün tərəflər üçün çox vacib olan etimadı təmin etməlidir.

**Saxlanılanlar.** Biz saxlanılanlar məsələsini də müzakirə etdik. Liderlər alicənablıq anlayışına sadiqliklərini bir daha təsdiqlədilər və bununla da ehtiyatsızlıqdan qarşı tərəfə keçən əsgərlərin azad olunması asanlaşacaq.

Mən hər iki tərəfdən saxlanılanların azad edilməsinin tərəfdarı olduğumu bildirdim.

İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi və minatəmizləmə üzrə əməkdaşlığın genişləndirilməsinin vacibliyi də müzakirə olundu. Mən bir daha tərəfləri mümkün qədər çox məlumat mübadiləsi aparmağa çağırdım.

**Hadisələrin inkişafı.** Biz razılaşdıq ki, komandalarımız bu gün müzakirə olunan məsələlərin daha sonra konkret inkişafını təmin etmək üçün sıx təmasda olacaqlar. Real inkişaf isə yaxın gələcəkdə atılmalı olan növbəti addımlardan asılıdır.

Əsas prioritet isə odur ki, sülh və normallaşma danışıqlarına lazımi şəraiti təmin etmək üçün zorakılıq və sərt ritorika dayandırılmalıdır.

Mən, həmçinin Ermənistan və Azərbaycan liderlərinə yaydan sonra Brüsseldə növbəti görüşə dəvət etmək niyyətimi bir daha bildirdim. Bundan əlavə, "Avropa siyasi birliyi"nin növbəti Zirvə toplantısı çərçivəsində Qranadada Fransa və Almaniya liderlərinin də iştirakı ilə beştərəfli görüş təklifimi də diqqətə çatdırdım.

# Olimpiada qalibləri mükafatlandırıldı

**"Şagirdlərimizin bilik və bacarıqlarının inkişafı milli sərvətimizdir. Yaxın gələcəkdə olimpiada qalibi olan məktəblilər Azərbaycanın ən yaxşı kadrları olacaqlar".**

Bu fikirləri elm və təhsil naziri Emin Əmrullayev respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimində səsləndirib.

Nazir olimpiadaların təşkil edildiyi ilk illərdə müsabiqələrə çox az sayda məktəblinin qatıldığını, lakin son dövrlərdə bu prosesin artıq olimpiada hərəkatına çevrildiyini bildirib.



E. Əmrullayev çıxışının sonunda qalibləri və onların valideynlərini təbrik edib, şagirdlərə yeni nailiyyətlər arzulayıb.

Mərasimdə respublika fənn olimpiadalarında ən yüksək nəticə göstərmiş 9 qızıl medalçıya – "Birincilərin birincisi"nə, ümumilikdə olimpiada qaliblərinə diplom və mükafatlar təqdim olunub.

Bildirilib ki, 8 fənn üzrə təşkil edilən olimpiadalarda 84 qızıl, 166 gümüş, 248 bürünc olmaqla ümumilikdə 498 medal qazanılıb. Qaliblər respublika üzrə 209 ümumi təhsil müəssisəsində təhsil alan şagirdlərdir.

# Səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri iyulun 15-də başa çatıb.

***AZƏRTAC***

# Azərbaycan XİN: Rusiya XİN-in bəyanatı anlaşılmazlıq və məyusluq doğurur

**Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin üçtərəfli bəyanatı və sülh prosesini şərh edən 2023-cü il 15 iyul tarixli bəyanatı anlaşılmazlıq və məyusluq doğurur.**



Bu, bu fikir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Rusiya Federasiyası Xarici İşlər Nazirliyi tərəfindən verilmiş bəyanata dair şərhində yer alıb.

Bildirilir ki, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin bu bəyanatı Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməyə və Rusiya Federasiyası Prezidenti Vladimir Putin tərəfindən Qarabağ bölgəsi daxil olmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləyən çıxışları ilə uyğunsuzluq təşkil edir.

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin 30 ilə yaxın müddətdə ərazilərimizi işğal altında saxlayan Ermənistanın baş nazirinin Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıması faktı kontekstində şərh etməsi və şərtləndirməsi qəbuledilməzdir.

Xatırlatmaq istərdik ki, məhz Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla münasibətlərin qurulması üçün beş baza prinsiplərini, sülh müqaviləsi təklifini, eləcə də sərhədlərin delimitasiyası təşəbbüsünü irəli sürən tərəfdir və bu istiqamətlərdə bütün ilkin sənədlərin müəllifidir. Hazırda da Azərbaycan tərəfi sülh müqaviləsinin irəlilədilməsi istiqamətində əməli addımlar atır.

Ölkəmiz həmçinin Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatlara daim sadiqlik nümayiş etdirib.

Buna baxmayaraq, sözügedən üçtərəfli bəyanat imzalanan ilk gündən etibarən Ermənistan tərəfi bəyanatın bir çox müddəalarını yerinə yetirməyib və Rusiya tərəfi öhdəlikləri çərçivəsində bəyanatın tam olaraq yerinə yetirilməsini təmin etməyib.

Uzun müddət ərzində Laçın yolundan istifadə etməklə aparılan qeyri-qanuni fəaliyyətə, Ermənistandan Azərbaycan ərazisinə hərbi təchizat və minalar daşınmasına, qanunsuz hərbi birləşmələrin rotasiyasına, üçüncü ölkə vətəndaşlarının icazəsiz əraziyə gətirilməsi kimi faktlara dair Azərbaycan tərəfindən dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bu fəaliyyətlərin qarşısının alınması üçün heç bir tədbir görülməyib.

Azərbaycan tərəfi ölkə ərazisində baş verən bu qanuna zidd fəaliyyətlərin qarşısının alınması, şəffaflığın təmin olunması məqsədilə, Azərbaycan qanunvericiliyinə və beynəlxalq qaydalara uyğun olaraq yaradılmış Laçın sərhəd buraxılış məntəqəsi təsis edib. Bu məntəqədən son bir neçə ay ərzində yüzlərlə erməni sakinlərin tənzimlənən və şəffaf şəkildə keçidi təmin olunub. Buna baxmayaraq, Ermənistan tərəfi yenə də Azərbaycan əleyhinə hərbi təxribatlarından əl çəkməyərək, iyunun 15-də məntəqəni atəşə tutub və iyul ayında Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) avtomobillərində qaçaqmalçılığa cəhd göstərib. Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfi BQXK vasitəsilə erməni sakinlərin keçidi üçün yenə də şərait yaradıb və Ağdam-Xankəndi yolu vasitəsilə erməni sakinlərin ehtiyaclarının qarşılanması imkanlarının mövcud olduğunu bildirib.

Bu kontekstdə, Azərbaycanın suveren hüququ olan Laçın sərhəd keçid məntəqəsi yaradılması məsələsinin siyasiləşdirilməsi cəhdləri və bölgədə guya gərgin humanitar vəziyyət yarandığı barədə iddialar səsləndirilməsinin heç bir əsasının olmadığı hər kəsə bəllidir.

Qeyd edilənlərə baxmayaraq, məhz Rusiya Federasiyasının tərəf olduğu 2020-ci il üçtərəfli bəyanata zidd olaraq, Azərbaycan ərazisində mövcud olan erməni silahlı qüvvələrinin qalıqlarının hələ də tam olaraq çıxarılması təmin edilməyib. Bunun əksinə, bölgədə Rusiya sülhməramlı kontingentinin müşahidəsi altında erməni silahlı qüvvələrinə dəstək həyata keçirilir.

Bununla yanaşı, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz kommunikasiyaya müxtəlif bəhanələrlə maneçilik törədildiyi məlumdur.

Azərbaycan bölgədə sülh və əmin-amanlığın təmin edilməsində maraqlıdır və bu istiqamətdə səylərini bundan sonra da davam etdirəcək.

# Üçüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsi

**İyulun 15-də Bakı Ekspo Mərkəzində üçüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsinin rəsmi açılış mərasimi keçirilib.**



Gənclər və idman nazirinin müavini, İşçi qrupunun rəhbəri Fərhad Hacıyev bildirib ki, finalçılar arasında ötən illər müsabiqədə iştirak etmiş namizədlərin çoxluq təşkil etməsi sevindirici haldır.

Tədbir Təşkilat Komitəsi üzvlərinin çıxışları ilə davam edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov insan kapitalının, kadr potensialının artırılması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə həyata keçirilən "Yüksəliş" müsabiqəsinin önəmini vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, belə bir dövrdə gənclərin ölkəmizin inkişafına dəstək olması üçün "Yüksəliş" müsabiqəsi əvəzsiz bir imkan yaradır.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə gənclərin inkişafına, təhsil sahəsinə, mütəxəssis hazırlığına hər zaman dövlətçiliyin və cəmiyyət həyatının ən vacib, strateji əhəmiyyətli sahəsi kimi yanaşılmasında Heydər Əliyev məktəbinin təkanverici rolunu vurğulayıb.

Müsabiqənin əvvəlki dörd mərhələsini uğurla başa vuran 109 nəfər iştirakçının mübarizə apardığı final mərhələsi iyulun 16-da yekunlaşacaq.

# Erməni kilsəsi sülhün Brüssel formatına qarşı

## Yaxud Ermənistanda dövlət və din amilinə baxış

**Erməni avantürizmi var gücü ilə çalışır ki, Azərbaycanla sülh əldə olunmasın. Üzərində Bakının təzyiqini, beynəlxalq ictimaiyyətin güzəşt çağırışlarının təsirini hiss edən rəsmi İrəvan sülhə doğru yön aldıqca, həmin avantürizmin ən müxtəlif təzahür formaları meydana çıxıb prosesi pozmaq üçün cəhdlər göstərir. Əlbəttə, illüziya mərəzinə yoluxmuş prinsipsiz Ermənistan hakimiyyəti belə "çağırışlara" qapılır və destruktiv mövqedən çıxış edir. Nəticə isə budur ki, 44 günlük müharibədən sonra gözlənilən barış mühiti hələ ki yoxdur. Qəribə paradoks yaranır: savaş meydanında darmadağın olmuş ölkə sülhə gəlmir, öz aləmində şərtlər müəyyənləşdirir, prinsiplər irəli sürür, hansısa "qırmızı xətlər"dən dəm vuraraq, gündən-günə azğınlaşır.**



Ermənistan hakimiyyətinin azğın, sülhdən uzaq mahiyyətini doğuran amillərdən biri də erməni kilsəsidir. Azərbaycan və Ermənistan liderlərinin dünən Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşündən əvvəl Eçmiədzin kilsəsinin ali ruhani şurası deyilən, din pərdəsi altında gizlənən ekstremist yığını bəyanat yayıb. Bəli, baş nazir Nikol Paşinyanın güzəştə getməsinə və Bakının şərtlərini qəbul edərək sülhə doğru irəliləməsinə zidd münasibət göstərən bütün destruktiv qüvvələr öz təxribatçı işlərini görmüşdülər, bircə qalmışdı kilsə.

"Biz Ermənistan hakimiyyətini güzəştli mövqelərindən əl çəkməyə, qətiyyət nümayiş etdirməyə və Artsax xalqının öz doğma torpaqlarında müstəqil, təhlükəsiz və ləyaqətli həyatın təminatına çevriləcək vəziyyətin həllini əsaslı şəkildə təmin etməyə çağırırıq". Bu həyasız fikirlər Eçmiədzin kilsəsinin bəyanatının ana xəttini təşkil edir. Sənəddə, həmçinin Qarabağda humanitar vəziyyətin, guya, ağırlaşdığı, Azərbaycanın davamlı anti-erməni fəaliyyət həyata keçirdiyi və bölgənin tam blokadası nəticəsində yerli əhalinin vəziyyətinin çətinləşdiyi vurğulanır. Rusiya sülhməramlı qüvvələrinin səylərinin nəticəsizliyi, Bakının təcavüzünün yeni miqyaslar aldığı diqqətə çatdırılır. Beynəlxalq ictimaiyyətə aciz yalvarışların əksini tapdığı bəyanatda, eyni zamanda, Avropa İttifaqına üzv dövlətlərə də müraciət ünvanlanır və "Laçın dəhlizi"nin (Berdzor yazılır – red.) qısa müddətdə açılması üçün kömək istənilir. Sənədin ən absurd məqamı isə orada ATƏT-in artıq canını tapşırmış olan Minsk qrupunun adının çəkilməsidir. Baş erməni kilsəsinin yalvarışında bu ölü qrupda təmsil olunan ölkələrə də üz tutulur.

Əlbəttə, nəzərə alaq ki, ermənilər də insandır, onların da yaşadıqları torpaqlarda, qurduqları evlərdə ömür sürmək haqları var. Ancaq bu haqqa düşmən kəsilən Azərbaycan deyil, Ermənistan hakimiyyəti, onun havadarları, xaricdəki erməni lobbi və diaspor təşkilatları və əlbəttə ki, erməni kilsəsidir. Bu mənada sonuncu daha mühüm "missiya"nı yerinə yetirməkdədir. Nəzərə alaq ki, tarix boyu erməni kilsəsi erməni avantürizminin ideoloji ruporu rolunda, ilhamvericisi qismində çıxış edib. Fikrimizin təsdiqi üçün əvvəlcə bir qədər yaxın keçmişin hadisələrini incələyək.

Yada salaq ki, erməni kilsəsi Birinci Qarabağ müharibəsində olduğu kimi, İkinci Qarabağ savaşı zamanı da təxribatçı mövqe tutdu. Dini idarənin dərin əsaslı çağırışının sülhə söykənməli olduğu halda, Eçmiədzin qisas və işğal toxumları səpdi. 44 günlük müharibə dövründə sosial şəbəkələrin erməni seqmentini əlində avtomat tutmuş erməni din xadimlərinin, keşişlərin şəkilləri "bəzədi". Azərbaycan əsgərinin atəşi nəticəsində cəhənnəmə vasil olanlarını da gördük. Din adına rəzalət olan bu şarlatanların başçısı katalikos II Qareginin qəzəb və hiddət dolu müharibə çağırışlarına da şahidlik etdik.

Ümumən, tarix boyu erməni kilsəsi şarlatan yuvası olub. Bu yuva hər zaman qonşu xalqlara qarşı aqressiv münasibəti təlqin edib, daim savaşa səsləyən dini mərkəz funksiyası yerinə yetirib. Səbəb çox sadədir – ermənilər həmişə qövm olublar, dövlətsiz yaşayıblar, birləşdirici faktor kimi dinə söykəniblər və bu baxımdan din xadimləri ön plana çıxıb. Yəni, belə düşünməyə əsas var ki, kilsə ermənilərin dövlətçilikdən uzaq yaşam tərzinin məhsuludur və bu zay məhsul yenə öz çirkin fəaliyyəti ilə hazırkı Ermənistanı keçmişə sürükləyir. Xəstə erməni təfəkkürü isə anlaya bilmir ki, köhnənin qalığı olan kilsənin aqressiv ritorikası müasir dünya düzəni üçün yolverilməzdir. Həm də ona görə yolverilməzdir ki, pis-yaxşı Ermənistan dövləti var. Hesab etsək ki, kilsənin aqressiv təbliğatı bu dövlətin yaranmasını şərtləndirib, həmin ritorikanın davamlılığı quruluşun məhvinə də apara bilər. Çünki belə yaramaz ritorika praqmatizmi rəhbər tutmur, necə deyərlər, divara kəllə vurmağı aşılayır. Bu gün nəinki Ermənistanın, eləcə də dünya erməniliyinin və xaricdəki erməni lobbi və diaspor təşkilatlarının qarşısında duran həmin o divar Azərbaycandır. Özü də söhbət lay, keçilməz, möhkəm türk divarından gedir. Eçmiədzin kilsəsi Paşinyana deyir ki, get, o divara kəllə at, başını-gözünü dağıt. Yəni, kilsə indiki halda, bəlkə özü də fərqinə varmadan, ölkəni məhvə aparmaq niyyətinə köklənib.

Bəli, kilsə ermənilər üçün təkcə dini deyil, eyni zamanda, elmi, ictimai-siyasi mərkəz olub. Maraqlı məqamlardan biri də budur ki, tarix boyu erməni kilsəsi heç zaman bəşəriliyi təbliğ və təlqin etməyib. Onun əsasını hər zaman millət anlayışı təşkil edib. Başqa sözlə desək, bu kilsə dini məbəd olaraq digər dinlərdən olanlar üçün müqəddəs məkan funksiyası daşımayıb. Sadəcə ermənilər üçün olub. Belə bir dar təfəkkürə əsaslanmış baxış günümüzdə də dəyişməz olaraq qalır.

Eçmiədzin dar təfəkkürlülərin dini əllərində bayraq edərək çıxardıqları oyunların ən böyük təşəbbüskarı qismində çıxış etməkdədir. Nəzərə alaq ki, ondan başqa Kilikiya (Beyrut) katolikosluğu, İstanbul və Qüds Patriarxlığı kimi şər yuvaları, yaxud ilk imkandaca şər yuvalarına çevrilmək fürsəti gözləyən erməni dini idarələri fəaliyyət göstərməkdədir. Eçmiədzindən söz düşmüşkən, ona Ermənistanla yanaşı, Rusiya, Ukrayna və bəzi Avropa ölkələrindəki erməni kilsələri tabedir. Məsələyə tabeçilik prizmasından yanaşsaq, Kilikiya katolikosluğunun isə Suriya və Livan erməni kilsələrinə nəzarət etdiyini söyləyə bilərik.

Diqqət yetirək, harada ki, erməni kilsəsi hakim rol oynayır, ora erməni terrorizminin də məskənidir. İkinci Qarabağ müharibəsi zamanı Suriya və Livandan muzdluların savaşa cəlb edildiyini xatırlayaq. Bu da onu deməyə əsas verir ki, erməni kilsəsi dini təşkilat qiyafəsindən çox-çox uzaqdır. Məsələyə mövcud rakursdan yanaşsaq, dahi Cəlil Məmmədquluzadənin "Erməni keşişi və azərbaycanlı axundun fərqi haqda" hekayəsini xatırlamağa ehtiyac var. Əlbəttə, həmin hekayədə azərbaycanlı molla müəllifin tənqid hədəfidir, bu öz yerində. Ancaq yazıçının diqqətə çatdırmaq istədiyi təkcə bu deyil. O, ermənin din xadimini siyasi təbliğatçı və millətçi kimi təsvir edir. Əslində isə bu təsvir həm də ifrat millətçiliyin diqqətə çatdırılmasıdır. O millətçiliyin ki, erməni avantürizmini, pozuculuğunu şərtləndirib. Əks-halda, C.Məmmədquluzadənin azərbaycanlı molla ilə müqayisə predmeti erməni din xadimi olmazdı. Deməli, yazıçı qələmi, eyni zamanda, həmin din xadiminin dindən uzaqlığına eyham vurub.

Onu da vurğulayaq ki, əslində, erməni milləti anlayışını dövriyyəyə buraxan da elə kilsə olub. Bu isə o deməkdir ki, ermənilik etnik mövcudluqdan daha çox, dini amildir. Tarixin müxtəlif dövlərindən bu sayaq mənfur köklənişə malik birliklərin başəriyyətin inkişafına nə dərəcədə böyük zərər vurduqları çox yaxşı məlumdur. Ermənistan dövləti isə bu gün eyni "ampluadadır". O, sanki bir yaradır, Cənubi Qafqazda sülhün formalaşmasına maneçilik törədir və tapındığı çıxış nöqtəsi kilsədir.

Paşinyan iqtidarı özünü nə qədər demokratik göstərsə də, bu başəri dəyəri deyil, kilsə ilə sinxronluğu əsas götürür. Sadəcə, "fəaliyyətini" ört-basdır edir. Hər halda Nikol və tərəfdarları dünyada dini sxolastikanın əsiri olan ölkə kimi görünməyin yaxşı qarşılanmadığını da gözəl anlayırlar. Ona görə maskalanırlar ki, tapındıqları dəyərin ekstremizm və qatı millətçilik olduğu üzə çıxmasın...

Tarixdən söz düşmüşkən, bildirək ki, ilk erməni siyasi hərəkatları Osmanlı İmperiyasında yaranıb. Bu hərəkat məhz keşiş və din adamları tərəfindən təbliğ olunub. İlk siyasi təşkilatların, terror qruplaşmalarının qurucuları və təbliğatçıları da onlardır. Bu haqda Osmanlı arxivlərində sənədlər kifayət qədərdir. Həmin sənədlərdə erməni kilsəsinin patronajlığı ilə Avropadan silah və sursat alınaraq, Anadoludakı erməni kilsələrində gizlədildiyinə dair faktoloji bilgilər əksini tapır. XIX əsrin sonlarına doğru bu silahların necə və kimə qarşı istifadə edildiyi də, həmçinin.

Məsələyə mövcud kontekstdən yanaşsaq, daha bir dəyərli mənbə rolunda Rusiyanın Van və Ərzurumdakı konsulu olmuş Mayevskinin xatirələri yada düşür. Mayevski bildirir ki, Anadoluda və Osmanlının müxtəlif bölgələrində təşkilatlanmış erməni birlikləri Qərbin dəstəyi ilə ölkəni çökdürmək üçün hərəkətə keçmişdilər. Onlar yollarda basqınlar törədir, qətllər və sui-qəsdlər gerçəkləşdirirdilər. Lakin konsul Qərbin Şərq məsələsinin davamını yunan amilində axtarması ilə erməni millətçiliyinin istifadə müddətinin bitdiyini, ermənilərin taleyin ümidinə buraxıldığını da vurğulayır. Deməli, hər neçə vaxtdan bir bu beyinsiz yırtıcı qövm yararsızlaşır və onun təmsilçiləri lazımsız əşya kimi bir kənara atılırlar.

Əslində, bu gün də erməni millətçiliyi eyni aqibəti yaşamaqdadır. Bu aqibətin perspektivi isə məhvdir. Baş nazir N.Paşinyan heç də əbəs yerə Ermənistan üçün "kadastr şəhadətnaməsi" almaq niyyətindən söz açmır. O, bəlkə də yeganə ermənidir ki, durumun ciddiliyini anlayır. Anlayır ki, bu gün erməni avantürizmi, böyük ölçüdə istifadəyə yararsızdır. Ona görə şəhadətnamə söhbətini açaraq Ermənistanın haqqı çatmayan dövlət institutundan məhrum duruma düşməsinin qarşısını almaq barədə danışır. Əlbəttə, erməni camiyəti o qədər xəstədir ki, təhlükənin mahiyyətindən uzaqdır...

Mətləbdən uzaqlaşmadan onu da bildirək ki, Eçmiədzin dinin rəsmən qadağan olunduğu keçmiş SSRİ dönəmində də fəaliyyət göstərib. Bu baxımdan sabiq imperiyanın son dövrlərində baş verən prosesləri xatırlayaq. 1987-ci ildə Eçmiədzin erməni kilsəsinin katolikosu I Vazgen ABŞ-a və Kanadaya səfər edib, orada yaşayan ermənilərlə görüşüb və onları "Böyük Ermənistan" naminə birləşməyə çağırıb. I Vazgenin digər çağırışı isə qondarma "erməni soyqırımı" ilə bağlı olub. O, dünya ermənilərini "soyqırımın" BMT tərəfindən tanınmasına səy göstərməyə səsləyib.

Göründüyü kimi, erməni millətçiliyi kilsə ilə vəhdətdə olub. Təsəvvür edin, 1988-ci ilin iyununda Makaravan monastırının baş keşişi Stepanın üç butulka fitilli yandırıcı və əldəqayırma fin bıçağı ilə Bakıda hüquq-mühafizə orqanları tərəfindən saxlanılması faktı var. Nəzərə alaq ki, həmin müddətdə Qarabağdakı kilsələr silah-sursat anbarı rolunu oynayıblar.

Erməni kilsəsinin təxribatçı əməlləri barədə, nə qədər desəniz, söz açmaq mümkündür. Bu yazıda yalnız kiçik fraqmentləri diqqətə çatdıraraq, onun pozuculuq dəst-xəttinə aydınlıq gətirdik. Məqsədimiz kilsənin Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanmasının Qərb formatının Brüssel raundunun sülh gündəliyinə zidd fəaliyyətini əsaslandırmaq idi. Əlavə olaraq onu da vurğulamalıyıq ki, bu mahiyyət, bütövlükdə, Cənubi Qafqazda dinclik və əmin-amanlığın bərqərar olmasına qarşı çıxan son dərəcə ciddi neqativ təmayüldür. Hətta sağalmaz yaradır da deyə bilərik. Elə bir yara ki, Ermənistan adlı dövlətin gələcək mövcudiyyətini şübhə altına alır. Axı, bütün sağalmaz yaralardan xilas olmağın bir yolu var: kəsib atmaq!

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

# Mətbuat Şurası Makrona etiraz məktubu göndərdi

## *Fransa Senatının sədri Larşenin erməniپərəst mövqeyinin mediada yayılması və təqdir edilməsi yolverilməzdir*

**Azərbaycan Mətbuat Şurası Fransa Prezidenti Emmanuel Makrona ölkə Senatının sədri Jerar Larşenin paylaşımının Fransa mediasında yayılması və həmin paylaşımın yanlış təəssüratın formalaşmasına səbəb olması ilə bağlı açıq məktub ünvanlayıb. MŞ-dən "Xalq qəzeti"nə daxil olmuş məktubda bildirilib ki, Ermənistan Parlamentinin spikeri Alen Simonyan bu il iyulun 11-13-də Fransaya işgüzar səfəri çərçivəsində Senatın sədri Jerar Larşe tərəfindən qəbul edilib. J.Larşe iyulun 13-də özünün tvitter hesabındakı paylaşımında bildirib ki, A.Simonyanla ayın 11-də keçirdiyi görüşdə Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizinin dərhal açılmasını guya Ermənistanın təhlükəsizliyinin təminatı məqsədilə Fransanın onu müdafiə xarakterli silahlar verməsini tezləşdirməyi tələb edib.**

Məktubda vurğulanıb ki, Fransa parlamentinin yuxarı palatası olan Senatın rəhbərinin bu mövqeyi Azərbaycan cəmiyyətində ciddi etiraz formalaşdırdığı kimi, ölkəmizin media ictimaiyyətinin də narazılığına səbəb olub. Həmçinin, Larşenin paylaşımının Fransanın ayrı-ayrı media orqanlarının yayılması və təqdir edilməsi də ciddi narazılıq doğuran məqamlardan biridir: "Hesab edirik ki, Senat sədrinin belə fikir bildirməsi həssaslığı ilə seçilən Cənubi Qafqaz bölgəsində sülhün əldə edilməsinə yönələn səylərə qarşı çıxmaq cəhdidir. Təəssüf ki, bu cəhd müxtəlif media vasitələrinin köməyi ilə Fransanın ictimaiyyətinə ötürülüb, bununla faktiki müharibə ab-havasının formalaşdırılmasına start verilib".

Hazırda Azərbaycanla Ermənistan arasında danışıqların davam etdiyinin vurğulandığı açıq məktubda, eyni zamanda, Azərbaycan mediasının iki ölkənin ortaq məxrəcə gəlməsi, sülh müqaviləsinin imzalanması, bölgədə kommunikasiyaların tam açılması, sərhədlərin delimitasiyası kimi məsələlərin həllinə yönəlmiş səyləri yaxından izlədiyi vurğulanıb. Avropa İttifaqının da diqqət mərkəzində olan bu prosesə bütövlükdə böyük ictimai marağın mövcudluğu önə çəkilib: "Mövcud şəraitdə, sülh gündəliyinin aktuallıq daşıdığı bir zamanda cənab Larşenin Ermənistanın silahlandırılması və yekun nəticədə isə regionun militarizasiyası məqsədini güdən bu mesajını yolverilməz hesab edirik".



Müraciətdə o da vurğulanıb ki, otuz ilə yaxın müddətdə münaqişənin ədalətli həllinə yönəlmiş hər hansı addımın atılmaması, əksinə, Ermənistanın davamlı silahlandırılması işğalçının yeni cinayətlərə hədəflənməsinə şərait yaratdı. "Hesab edirik ki, beynəlxalq aləm, o cümlədən Fransa ictimaiyyəti və mediası ilk növbədə bunu nəzərə almalı, regionda gərginliyin daha da artmasına və arzuolunmaz ssenarilərin yaşanmasına qarşı müqavimət göstərməlidir. Cənab Larşenin fikirlərinin təbliği yaşadığımız coğrafiyada hələ də kövrək olan sülh gündəmini təhlükəyə atır, millitarizmin vüsət alması üçün zəmin yaradır. Bu, Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələri kimi, ölkəmizin mühüm ictimai institutlarından sayılan, tərkibində aparıcı media orqanlarını və jurnalist təşkilatlarını birləşdirən Mətbuat Şurasını da məyus edir və təəssüfləndirir. Azərbaycan jurnalistləri hesab edirlər ki, indi yaranacaq hansısa xoşagəlməz hala, silahlı eskalasiyaya və digər gərginlik təmayüllərinə görə məsuliyyət birbaşa Fransa dövlətinin və onun rəhbərliyinin üzərinə düşəcək", – deyə sənəddə bildirilib.

MŞ-nin məktubunda Fransa rəhbərliyinin birtərəfli mövqeyini, Ermənistanı silahlandırmaqla regionda qeyri-sabitliyin daha da güclənməsinə yönəlmiş siyasətini yenidən nəzərdən keçirəcəyinə ümid ifadə olunub: "Onu da diqqətinizə çatdırmaq istərdik ki, hazırkı dövrə kimi Fransa tərəfindən Ermənistana piyada döyüş maşınlarının, Fransanın lisenziyası ilə Hindistanda istehsal olunan artilleriya və raket sistemlərinin və digər hücum və öldürücü ağır silahların verilməsinə dair faktlar vardır. Bundan başqa, Fransanın Ermənistanda hərbi attaşe ofisini yaratdığı da bildirilir. Ümid edirik ki, qeyd edilmiş bu məsələlər ciddi araşdırılacaq, bizim sorğularımız cavablandırılacaq və Fransa dövləti bütün bunlara aydınlıq gətirəcəkdir".

MŞ məktubunda Makronu qaldırılan məsələyə həssas yanaşmağa, Cənubi Qafqazda davamlı sülhün dəstəklənməsinə səy göstərməyə çağırıb: "İnanmaq istərdik ki, çağırışımıza adekvat münasibət ortaya qoyulacaq və Fransa bundan sonra Azərbaycanla Ermənistan arasında problemlərin həlli məsələsində ədalətli mövqe nümayiş etdirəcək, gərginliyin aradan qalxmasına töhfə verməklə, hər iki ölkənin xalqlarının dinc və əmin-amanlıq şəraitində yaşaması kimi bəşəri missiyanın gerçəkləşməsinə kömək göstərəcəkdir".

**"Xalq qəzeti"**

15 iyul Türkiyənin “Demokratiya və Milli Birlik” günüdür

# Türk xalqının demokratiyaya sahib çıxdığı gün

## *O ağır gündə əl-ələ verən xalq və dövlət yenilməz ruhunu, Vətənə sevgisini isbat etdi*





**“Türkiyədə 15 İyul hadisələrinin yeddinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik”. Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin 15 İyul hadisələrinin ildönümü ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda yer alıb.**

Məktubda həmrəyliyin və milli birliyin rəmzi olaraq təsis olunmuş “Demokratiya və Milli Birlik Günü”nün Türkiyə dövlətçiliyi tarixində böyük şərəf günü olaraq qalacağı vurğulanır. Qeyd olunur ki, Türkiyə Respublikasına qarşı yönəlmiş bu xain plan ölkənizin tarixində çətin sınaq idi. Bu sınaqdan alnıaçıq və üzüağ çıxan Türkiyə xalqı bütün dünyaya iradəsinin sarsılmazlığını, mətinliyini, dövlətçiliyə və demokratiyaya sadiqliyini bir daha bariz şəkildə nümayiş etdirdi. Həmin ağır gündə çiyin-çiyinə vermiş Türkiyə xalqı və dövlətinin qətiyyəti sayəsində, şəhidlərinizin qanı və canı bahasına əldə edilmiş bu zəfər xalqınızın bənzəri olmayan mübarizlik və yenilməzlik ruhunu, Vətənə sevgisini təsdiq etdi.

İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana məktubu bu sözlərlə bitir: “Əminəm ki, ən böyük sərvətimiz olan sarsılmaz Azərbaycan–Türkiyə qardaşlığını, birliyini və həmrəyliyini qoruyub saxlamaq və gələcək nəsillərə ərmağan etmək, strateji müttəfiqliyimizi hərtərəfli inkişaf etdirmək və möhkəmləndirmək naminə birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik”.

* * *

Qeyd edək ki, 2016-cı il iyulun 15-də Türkiyədə dövlət çevrilişinə cəhd edilərkən xalqın və Türkiyə Silahlı Qüvvələrinin düzənlədiyi uğurlu əməliyyat nəticəsində 22 saatdan sonra qiyam yatırıldı. Hökumətin 29 oktyabr 2016-cı ildə “Resmi Gazete”də yayımlanan qərarı ilə bütün ölkədə şəhidlərin ehtiramla anılması, qazilərə minnətdarlıq və şükranlığın bildirilməsi, xalqın demokratiyaya olan inancının və sadiqliyinin gələcək nəsillərə çatdırılması üçün 15 İyul “Demokratiya və Milli Birlik Günü” olaraq qəbul edildi.

### “Dünyanı FETÖ-yə dar edəcəyik”

Bu sözləri Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasına (ASEAN) üzv ölkələrin Xarici işlər nazirlərinin illik toplantısında iştirak etmək üçün İndoneziyanın paytaxtı Cakartada səfərdə olan Türkiyənin XİN-in rəhbəri Hakan Fidan söyləyib. H.Fidan İndoneziyanın xarici işlər naziri Retno Marsudi ilə birgə mətbuat konfransında deyib ki, bütün qurumlarımızla koordinasiyalı şəkildə FETÖ-yə qarşı dünyanı daraltmağa davam edəcəyik. FETÖ ilə mübarizəni milli təhlükəsizliyimizin ən mühüm məsələlərindən biri kimi görürük. Onlar Türkiyə düşmənlərinə xidmət edən çirkin siyasi məqsədləri üçün xalqımızın tarixindən doğan bütün müqəddəs dəyərlərdən amansızcasına sui-istifadə etdilər. Onların əsl üzünü görənlərə qarşı hər cür sui-qəsdlər qururlar.

### TDT: Milli Birlik Günündə Türkiyənin yanındayıq

“Türkiyə dövləti və xalqı bu gün FETÖ terror təşkilatının xəyanətinə qarşı 15 İyul Demokratiya və Milli Birlik Gününü şərəflə qeyd edir. Demokratiyanın qələbə çaldığı Milli Birlik Günündə Türkiyənin yanındayıq. “Report”un Ankara bürosu xəbər verir ki, bu barədə Türk Dövlətləri Təşkilatı (TDT) Baş Katibliyinin bəyanatında bildirilib. Qeyd olunub ki, Türkiyə Cümhuriyyəti Fətullahçı terror təşkilatının 15 iyul 2016-cı il tarixində dövlətə, konstitusiya quruluşuna və xalqa qarşı törətdiyi xain çevriliş cəhdinə qarşı türk xalqı və təhlükəsizlik qüvvələri qəhrəmanlıqla şərəfli mövqe nümayiş etdirib: “Bu gün Türkiyə demokratik qələbəsinin yeddinci ildönümünü qeyd edir. Bu mənfur çevriliş cəhdi türk millətinin qanunun aliliyinə və ölkənin demokratik təsisatlarına sadiqliyini nümayiş etdirən daha bir qəhrəmanlıq dastanı ilə nəticələnib”.

### “Bundan sonra da xainlərə qarşı birgə hərəkət edəcəyik”

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı “Demokratiya və Milli Birlik Günü” münasibətilə keçirilən anım tədbirindəki çıxışı zamanı deyib:

“FETÖ qlobal şəkildə öz fəaliyyətini hələ də davam etdirir və sülhə qarşı öz xain planlarını hər zaman həyata keçirməyə çalışır”, – deyən səfirin sözlərinə görə, FETÖ ilk fürsətdə Türkiyəyə qarşı xain addımlar atmağa çalışır: “Onlar vətən xainidir və türk xalqı onları qəbiristanlıqlara belə girməyə icazə verməyib”.

Çıxışında “Yeddi il əvvəl 15 iyulda həlak olmuş 251 şəhidimizi hər zaman hörmətlə anacağıq və onların əziz xatirəsini daim yad edəcəyik”, – deyən C.Bağçı onu da xüsusi olaraq vurğulayıb ki, 44 günlük Vətən müharibəsində olduğu kimi 7 il əvvəl də Türkiyə bayrağı ilə yanaşı, Azərbaycan bayrağı da dalğalandırılıb: “Bu, iki qardaş xalqın bir-birinə bağlılığının daha bir sübutu idi. Türkiyə və Azərbaycan bundan sonra da xainlərə qarşı birgə hərəkət edəcəklər”.

**“Xalq qəzeti”**

Siyasi sarkazm

**Bir müddət əvvəl Ermənistan baş naziri Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinə zəng etmişdi. O vaxt erməni mediası bu zəngin Qarabağdakı separatçı rejimin rəhbəri Arayik Arutyunyanın xahişi ilə gerçəkləşdiyini yazmışdı. Eyni zamanda, Arayikin Putinə məktub göndərdiyinə dair xəbərlər də dolaşmaqda idi.**

# Baş separatçıdan Putinə, sonra isə Mişelə məktub

## *Yaxud Arayikin öz villasını satmaq barədə naməsinə sözardı*

Əlbəttə, baş separatçının naməsində nələrin əksini tapdığı açıqlanmasa da, ehtimal irəli sürmək mümkün idi ki, o, Rusiyanın bəzi dairələrinin Qarabağ sevdasından irəli gələn pozuculuğu üzərində manipulyasiya edərək, özünü şirin satmağa, beləliklə Kreml rəhbərini bölgə ilə bağlı hərəkətə keçməyə həvəsləndirməyə çalışır. Yeri gəlmişkən, vurğulayaq ki, Şimal qonşumuzun bəzi politoloqları belə bir cəfəng fikir irəli sürmüşdülər ki, guya, Qərbpərəst Ermənistan hakimiyyəti Rusiyaya pislik etmək üçün rusmeyilli Qarabağı Azərbaycana peşkəş etmək fikrindədir. Ancaq...

Dünən baş nazir Nikol Paşinyan Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi üzrə Qərb formatının Brüssel raundu çərçivəsində Belçikanın paytaxtında olarkən, vasitəçi qismində çıxış edən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə də separatçıbaşı Arayikin məktubunu təqdim edib. Erməni mediası isə həmin təqdimat anının əksini tapdığı şəkli paylaşıb.



Şəkli siz, dəyərli oxucularımız da görürsünüz. Onu da görürsünüz ki, Paşinyanın təqdimatı qeyri-formal şəraitdədir. Buna ayaqüstü təqdimat da demək mümkündür. Yəni, məktub söhbət zamanı çatdırılmayıb. Belə təəssürat yaranır ki, Arayik Paşinyana inanmır və ondan məktubun Mişelə verdiyi anı, belə demək mümkünsə, öz gözü ilə görmək istəyib. Çox güman ki, Nikol bunu cənab Mişelə də deyib və ona görə hər iki tərəf mənasız işlə məşğuliyyətin gətirdiyi gülüşü gizlədə bilmir.

Elə bu şəkildən də görmək mümkündür ki, Brüssel masasında Qarabağ məsələsinə yer yoxdur. Yer o qədər yoxdur ki, Paşinyan Arayikin məktubunu protokol qaydasında vermir, birbaşa Mişelin özünə çatdırır. Yəqin, namənin “it-bata” düşməsindən qorxub. Əlbəttə, bu, əslində, Nikolun deyil, Arutyunyanın qorxusudur. Görünür, Arayik yalvarış edib və deyib ki, məktub birbaşa Mişelin özünə çatsın.

Arutyunyanın Putinə məktubunun məzmunu tam şəkildə açıqlanmadığı kimi, onun Aİ Şurasının prezidentinə naməsinin də mətnindən xəbər-ətər yoxdur. Əlbəttə, mənasız söz yığınını ictimai rəyə yük etmək mənasızdır. Həm də nəzərə alaq ki, Putindən fərqli olaraq, Mişelin administrasiyası Arayikin məktubunu heç cür ictimailəşdirə bilməz. Çox güman, orada ağlına gələn cəfəng fikirləri sıralayıb ki, həmin cəfəngiyyatın dünyanın ictimai rəyinə çıxması Brüssel gündəliyinə zidd təmayüldür. Bu, həm də Azərbaycanın mövqeyinə qarşı demarş kimi qəbul edilə bilər ki, belə bir hal nəinki Mişelə, onun təmsil etdiyi tənzimləmə xəttinə də xeyir gətirməz.

Onu da nəzərə alaq ki, Qarabağ separatçısının məktubunun məzmununun açıqlanması elə Ermənistanın özünə də zərərlidir. Paşinyan zərərin bir addımlığından qayıdır. Axı, gördüyünüz təqdimat anının ictimailəşdirilməsinin özü də sülh gündəminə zidd təmayüldür və heç şübhəsiz ki, bu, Azərbaycan tərəfindən qıcıqlandırıcı motiv, danışıqlara yeni “ovqat” gətirmək cəhdi olaraq qiymətləndiriləcəkdir. Hər halda, ziyanın yarısından qayıtmaq da xeyirdir. Sonrası isə məlumdur...

Digər tərəfdən, A.Arutyunyanın əvvəl Putinə, indi isə Ş.Mişelə məktubu başqa mətləblərdən də xəbər verir. Tam mümkündür ki, separatçıbaşı özünün təhlükəsizliyini təmin etmək barədə düşünür. Yəni, böyük ehtimalla burada söhbət heç də pafoslu bəyanatlardakı kimi deyil.

Diqqət yetirək, sosial şəbəkələrdə A.Arutyunyanın Xankəndidəki villasını satışa çıxardığına dair məlumatlar dolaşmaqdadır. Villa üçün qoyulan məbləğ də açıqlanır – 1 milyon dollar. Ola bilər, villa satılmadığından, Arayik onun pulunu Mişeldən, yaxud Avropdan, kollektiv Qərbdən almaq istəyir. Hər halda, ermənidir, ondan nə desən çıxar. Onu da düşünək ki, ağlı başında olan kimsə hazırda gedib Xankəndidə villaya 1 milyon dollar verməz.

...Belə qənaətə də gəlmək mümkündür ki, Arayik əvvəl Rusiyadan özü üçün təhlükəsizlik qarantiyası və belə demək mümkünsə, separatçı mühacirət üçün təminat istəyib, amma alınmayıb. Ona görə indi eyni “istəklə” Ş.Mişelə üz tutub. Mişelin də təbəssümündən görünür ki, məktub qeyri-ciddidir.

Sual yaranır: nə üçün Paşinyan özü Arayikə sahib çıxmaq istəmir? Nikol yaxşı bilir ki, dünya ictimaiyyəti Qarabağ kontekstində baş verən prosesləri Azərbaycan-Ermənistan münasibətləri müstəvisində görür. Hətta, hazırda bölgənin erməni əhalisinin hüquq və təhlükəsizliyi ilə bağlı məsələ qaldıranlar da duruma eyni müstəvidən yanaşırlar. Elə həm də bu səbəbdən Arayikin məktubunun daha çox şəxsi xarakterli olduğuna dair qənaətə gəlmək mümkündür.

Bilavasitə suala cavaba gəldikdə isə Ermənistan Azərbaycanın Qarabağ da daxil olmaqla, 86,6 min kvadratkilometr ərazidə suveren haqlarını tanıyırsa, Bakı-Xankəndi kimi dialoq məntiqi keçərsizdirsə və bu fonda hər iki ölkə sülhə gəlirsə, o zaman Arayik kimi separatçının Ermənistanda qalması da mümkünsüzləşdir. Deməli...

... Arayik villasını kiməsə sırıyıb aradan çıxmalıdır. Yeri gəlmişkən, Arutyunyanın öz ailə üzvlərini artıq Qarabağdan çıxardığı bildirilir. Ailə üzvlərini özü bilər, ancaq onun villasını tövlə kimi almaq istəyənlər Azərbaycanda çoxdur. Zəhmət çəkib buna görə ora-bura məktub yazmasa da olar.

**Ə.RÜSTƏMOV,**
**“Xalq qəzeti”**

Siyasi özbaşınalıq

# Ermənistan ölkəmizə qarşı ekoloji terroru davam etdirir

## *Qərb şirkətləri də bu cinayətə qoşulur*

**Ermənistan Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə–Arazdəyəndə ABŞ sərmayəsi ilə 70 milyon dollarlıq iri metallurgiya müəssisəsi inşa etməyə hazırlaşır.**

Mütəxəssislərin bildirdiyinə görə, zavodun inşası reallaşacağı təqdirdə geniş zolaqda ətraf mühitin, ekosistemin pozulacağı, havanın zəhərli tullantılarla çirklənəcəyi, mal-qaranın və əkinlərin sıradan çıxacağı gözlənilir. Bu da Naxçıvan, o cümlədən Sədərək sakinlərinin ekoloji fəlakətlə üz-üzə qalacağını, ciddi xəstəliklərlə üzləşəcəyini indidən deməyə əsas verir.

Ekspertlər tərəfindən müəssisə fəaliyyətə başlayandan sonra onun fəsadlarından təkcə Naxçıvan, eləcə də respublikamızın digər bölgələri, habelə Türkiyə, İran, o cümlədən elə Ermənistanın da zərər çəkəcəyi vurğulanır. Həmçinin qeyd edilir ki, inşa ediləcək zavod Arazın sahilindədir. Ona görə də müəssisənin tullantılarının bu çaya axıdılacağı heç bir şübhə doğurmur. Belə bir vəziyyətin gerçəkləşəcəyi isə işğalçı dövlətin respublikamıza növbəti ekoloji terroru kimi vurğulanır. Belə ki, illərdir ki, Ermənistan indiyədək Zəngilan rayonu ərazisindən keçən Oxçuçayı Qacaran mis-molibden zavodunun və Qafan mis filiz saflaşdırma kombinatının toksiki tullantıları ilə çirkləndirir. Yaxud, Araz çayının qolu olan Şir arxı da ermənilər tərəfindən çirkləndirilir, onun ekoloji müxtəlifliyinə ciddi zərər vurur.

Amma təkzibedilməz faktlara əsaslanan bütün bu ekoloji terror hadisələri beynəlxalq qurumlar tərəfindən indiyədək susqunluqla qarşılanıb. Belə bir laqeyd münasibətdən sonra isə Ermənistan indiyə kimi insanlığa sığmayan əməllərini davam etdirib. İş o həddə çatıb ki, hətta Azərbaycana bu məsələdə haqq səsini ucaltdığına görə, hədə-qorxu gəlməkdən belə çəkinməyib. Məsələn, bir neçə gün bundan əvvəl Ermənistan mətbuatı Arazdəyəndə iri metallurgiya zavodunun tikintisini həyata keçirən “Virtual Funding” və “CSE Global” şirkətlərinin bəyanatını yayıb.

Bəyanatda həmin özəl qurumların nümayəndələri çox güman ki, Ermənistan rəhbərliyinin diqtəsi ilə, guya, Azərbaycanı bu müəssisənin tikintisinin qarşısını almaq cəhdinə görə, vurduğu ziyanda ittiham edir və buna görə də kompensasiya tələb edəcəklərini bildirirlər. Eyni zamanda, tikilən zavodun Azərbaycan üçün ekoloji problem yaradacağı ilə bağlı deyilənlərin yalan olduğunu vurğulayırlar. Adları çəkilən müəssisələrin nümayəndələri inşa ediləcək zavodda gələcəkdə hazır metalların armatura çevriləcəyini, heç bir zərərli tullantıların olmayacağını iddia edirlər.

Bəyanatın sonunda tikilən zavodun transsərhəd təsiri olmadığı üçün Azərbaycanın göstərdiyi beynəlxalq konvensiyaların heç bir müddəasının pozulmadığı da bildirilir.

Əlbəttə, bu bəyanatda səsləndirilən fikirlər, necə deyərlər, gözə kül üfürməkdən başqa bir şey deyil. Çünki Ermənistanın zavod tikməkdə xoş niyyəti olsa idi, sərhəddən kənarda, ölkənin mərkəzinə yaxın bir ərazidə belə bir müəssisəni inşa edərdi. Bu barədə məsuliyyət öz üzərlərində qalardı və digər ölkənin ərazisinə müdaxilə məqsədi daşımazdı.

Yeri gəlmişkən, məsələ ilə bağlı bir müddət əvvəl Azərbaycanın ekoloji qeyri-hökumət təşkilatları da bəyanat yaymışdı və o zaman işğalçı ölkənin ətraf mühit naziri həmin bəyanatda səsləndirilən haqlı çağırışları qəbul etməmiş, zavodun bütün hüquq normalarına uyğun tikildiyini bildirmiş, respublikamızın bu hadisəyə ciddi yanaşmasını isə Ermənistanın iqtisadi inkişafına maneə adlandırmışdı.

Şübhəsiz ki, erməni nazir bu sözləri deyərkən həqiqətə deyil, cəfəng fikirlərə əsaslanıb. Çünki Ermənistan bütün hüquq normalarına uyğun zavod tikirsə, niyə Azərbaycan və digər qonşu dövlətlərlə razılaşma əldə etməyib. Həmçinin işğalçı dövlət Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisə tikmək qərarına gələrkən transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında 1991-ci il Espo Konvensiyasını “unudub”. Halbuki Ermənistan həmin konvensiyanın şərtlərinə görə, ərazisində planlaşdırdığı iri təsərrüfat fəaliyyətinin digər ölkələrin ərazisinə mənfi ekoloji təsir göstərib-göstərməyəcəyi barədə müddəanı diqqətdə saxlamalı idi. Başqa sözlə, Azərbaycanın müvafiq qurumları ilə razılaşdırılma aparmalı, ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı sənəd hazırlamalı idi.

Ermənistanın bu məsələdə əsas mövqeyi isə belə bir zavodun Azərbaycanla həmsərhəd ərazidə tikilməsi və bunun respublikamızla razılaşdırılmaması ərazimizə, kənd təsərrüfatına, ekoloji mühitə qəsdən yönəldilən ekoloji terroru davam etdirməsini deməyə əsas verir.

**VB AYRAMOV,**
**“Xalq qəzeti”**

# Rusiya dost olmayan Qərb ölkələrinin ofşor şirkətlərini “qara siyahı”ya salıb

***“INTERFAX.RU” agentliyinin məlumatına əsasən, Rusiya Maliyyə Nazirliyi dost olmayan Qərb ölkələrinin ofşor şirkətlərini “qara siyahı” daxil edib. Bununla da iyul ayından etibarən siyahı 40-dan 91-ə yüksəlib. Beləliklə, vergitutma üçün güzəştli vergi rejimini reallaşdıran və maliyyə əməliyyatları həyata keçirərkən məlumatların açıqlanması, habelə təqdim edilməsini gerçəkləşdirməyən dövlətlərin və ərazilərin siyahısı iki dəfədən çox artırılıb.***

**Bu barədə nazirliyin rəsmi hüquqi informasiya portalında dərc edilmiş 5 iyun 2023-cü il tarixli əmrində məlumat verilib.**

**Yenilənmiş siyahıya Aİ ölkələri, Böyük Britaniya, İsveçrə, ABŞ, Kanada, Yaponiya, Cənubi Koreya, Sinqapur, Tayvan, Avstraliya və Yeni Zelandiya daxildir.**

**“Xalq qəzeti”**



# Heydər Əliyev dərsləri

**(əvvəli "Xalq qəzeti"nin 2023-cü il 7, 13, 15, 17 may, 24, 26 iyun, 4, 5, 7 iyul nömrələrində)**

## "Bu, sizin bədbəxtliyinizdir"

**Milli Məclisin iclaslarının birində Heydər Əliyev əvvəlki hakimiyyətin yol verdiyi nöqsanların, səhvlərin geniş təhlilini belə vermişdir:**

– Bizim məclisin üzvü İbrahim bəy (İbrahimov – F.S.) kimi adamlar, – bu, Xalq Cəbhəsinin ən böyük bəlasıdır, – belə hesab edirlər ki, onlar Azərbaycanda demokratiyanın Allahıdırlar, dedikləri Quran ayəsidir, yalnız və yalnız onlar demokratik adam ola bilərlər, başqaları əsla ola bilməz və onların gördüyü bütün işlər demokratik işlərdir. Bu, sizin bədbəxtliyinizdir, İbrahim bəy. Mən sizə dəfələrlə demişəm, bəzən mənim sizə yazığım gəlir. Ona görə ki, siz özünüz haqqında elə fikirdəsiniz ki, guya, siz böyük hünər göstərib, dağı-dağ üstə qoymusunuz.

Axı belə deyil! Yoxsa, yeddi milyon əhalisi olan Azərbaycanda təkcə siz demokratsınız, qalan hamımız anti-demokratik? Qanun tərəfdarları tək bir siz oldunuz, qalanların hamısı Konstitusiyanın əleyhinə çıxan adamlardır? Axı belə olmaz! Bu iddialardan əl çəkin.

Mən Ali Sovetin Sədri kimi, Milli Məclisin iclasını apararkən şərait yaradıram ki, burada hərə öz fikrini desin. Amma, bu, o demək deyil ki, burada böhtanlar atasınız, başqa adamlar haqqında hökmlər verəsiniz. Daxili işlər naziri çıxış edib öz fikrini deyir ki, Xalq Cəbhəsi bağlanmalıdır. Siz də sübut edin ki, yox, bağlanmamalıdır. Bax budur, fikir müxtəlifliyi. O deyir ki, İbrahim İbrahimov məclis üzvlüyündən çıxarılmalıdır. Bunu deməyə onun haqqı var. Siz isə özünüzü müdafiə edin. Yoxsa durub deyirsiniz ki, heç kəs məni Milli Məclis üzvlüyündən çıxara bilməz. Bu nə deməkdir, siz nəyə arxayınsınız? Məni başa düşə bilmirəm. Əgər məclisin üzvləri səs versələr, siz çıxacaqsınız. Amma siz deyirsiniz ki, heç kəs məni çıxara bilməz. Belə bunları ona görə deyirəm ki, siz bu ifadələri işlədəndə düşünmürsünüz axı! Odur ki, sizə yazığım gəlir. Düşünsəydiniz, belə sözlər deməzdiniz. Bax, bunu sizə də, başqalarına da deyirəm. Siz dediniz ki, burada antikonstitusion yol ilə hakimiyyət dəyişildi. Bu böhtançılıqla nə vaxtadək, nə qədər məşğul olacaqsınız? Deyirsiniz ki, gedən proseslərə siyasi qiymət verilməyibdir. Bu böhtançılıqla nə qədər məşğul olacaqsınız? Əl çəkin bunlardan! Mən bu məsələni müzakirəyə çıxartmışam ki, burada həqiqətən, sözün əsl mənasında milli barışıq elan edim. Gördünüz ki, öz səlahiyyətimdən istifadə edib, burada çıxış edən iki adama göstəriş verdim.

Amma siz görün nə iddialar irəli sürürsünüz. Nə qədər danışmaq olar? 74 il ərzində buranı dağıdıblar? Yoxsa buranı siz düzəltmisiniz? Yaşadığınız torpaq da, ev-eşik də, oxuduğunuz, işlədiyiniz məktəb də, bu bina da – hamısı 74 il ərzində yaradılıbdır. Bəs siz nə yaratmısınız? Hər şeyə düzgün qiymət vermək lazımdır.

74 il Azərbaycan xalqının tarixidir, bizim tariximizdir. 74 ildə bir neçə nəsil yaşayıb, qurub-yaradıb. İndi sizin nə haqqınız var ki, bu 74 ilin üstündən qara xətt çəkirsiniz? Nə haqqınız var? Hansı xidmətlərinizə görə? Sizin də, sizin başçınız olub Elçibəyin də hansı xidmətləri olub? Göstərin görək, hansı ağacı əkmisiniz? Hansı arxa su çəkmisiniz? Hansı evi tikmisiniz, hansı binanı ucaltmısınız? Belə olmaz axı! Sözünüzü deyin, amma bu iddialardan əl çəkin. Özünüzü elə qələmə verməyin ki, Allah tərəfindən yaradılmış xüsusi bir təbəqəsiniz. Siz də bu xalqın içərisindən çıxmış, bu xalqın arasında yaşamış adamlarsınız. Sizin fikriniz belədir, başqalarının fikri ayrı cürdür. Mən gərək hər də sübut edəm ki, İbrahim İbrahimov demokratik adam deyil, antidemokratik adamdır? Mən demokratiya ilə məşğul olanda sən hələ kənddə, necə deyərlər, ayaqyalın gəzirdin. Mən məhz demokratiya ilə məşğulam. İndi sən gəlib Azərbaycanda demokratiyanın banisi olmusan, demokratiyanın hakimi olmusan? Hələ bir qiymət verirsən ki, kim demokratiyanın tərəfdarıdır, kim əleyhinədir? Belə şeylər yaramaz axı, qardaş! Belə olmaz, milli barışığa bu cür getmək olmaz.

***

Məclisin bəzi üzvləri çıxış edib dedilər ki, Xalq Cəbhəsinin üzvləri bu salonda adamları döyüblər, söyüblər, təhqir də ediblər, qanunsuz olaraq həbsə də alıblar. İndi siz siyahı çıxarıb deyirsiniz ki, min nəfər adam işdən qovulub. Mən bilmirəm, bu, düzdür, ya yox. İnanmıram buna, Xalq Cəbhəsi adamlarının əksəriyyəti iş başındadır. Bəziləri vəzifələrini, özləri demişkən, dondurublar. Bu, onların öz işidir. Elə dondurublar ki, hələ indiyədək buzun içərisindədirlər.

Yenə deyirəm, bu, onların öz işidir, amma əksəriyyəti iş başında, işləyir. Bəs siz hakimiyyət başına gəldikdə nə işlər gördünüz? Adamların başına nə işlər gətirdiniz, nə oyunlar açdınız? İşdən də çıxartdınız, həbs də elədiniz, döydünüz də, söydünüz də. Mən deməmirəm ki, indi onları təkrar etmək lazımdır, yaxud da kimsə təkrar edirsə, mən ona bəraət qazandırıram, – xeyr, belə deyildir. Mən ona da nifrət edirəm, indi qanunları pozanlara da. Onun da əleyhinəyəm, bunun da. Amma siz elə bilirsiniz ki, tutduğunuz əməllərin hamısı qanunidir, sizin buna haqqınız vardı. Lakin indi sizin qeyri-qanuni hərəkətlərinizi bir balaca qanun çərçivəsinə qoymaq istədikdə dünyaya car çəkirsiniz ki, burada qanun pozulur, insan hüquqları, demokratiya pozulur. Siz nə desəniz də, nə etsəniz də, bilin ki, mən qanunun və insan hüquqlarının pozulmasının əleyhinəyəm. Amma siz də bilin ki, qanun nə deməkdir, qanunun hüdudu haradadır, insan hüquqlarının həddi haradadır. Bunları bilin və özünüzü ərköyün uşaq kimi aparmayın, özünüzə istisna səlahiyyət tələb etməyin, bunlar doğru deyildir.

***

Mən Xalq Cəbhəsinin nə bağlanmasının, nə də ləğv olunmasının tərəfdarıyam. Demokratik bir adam kimi, bütün demokratik təşkilatların fəaliyyət göstərməsinin tərəfdarıyam və buna şərait yaradacağam. Amma Xalq Cəbhəsi düşünməlidir – o, özünü ləkələyib. Ona görə ki, bir ictimai-siyasi təşkilat olduğu halda, özünə böyük silahlı dəstələr düzəldib. Bu isə Xalq Cəbhəsi üçün ən böyük ləkədir. Çünki ictimai-siyasi təşkilatın silahlı dəstəsi ola bilməz. Tarixdə heç bir partiyanın silahlı dəstəsi olmayıb. Yalnız faşist partiyasının silahlı dəstəsi vardı. Əgər siz faşist partiyası olmaq istəyirsinizsə, bu, öz işinizdir. Özünüz bilərsiniz. Amma mən bunu sizə məsləhət bilməzdim. Buna görə də fikirləşin.

## "Toy vaxtı idimi?"

**Ulu öndər keçmiş iqtidarın günahları ucbatından Kəlbəcərin işğal edildiyini faktlar əsasında sübut etmişdi. O demişdi:**

– Siz Kəlbəcərin işğal olunmasının hansı şəraitdə baş verməsi barədə keçən dəfə danışmışdınız, bu dəfə də dediniz. Həqiqətən, televiziyada deyildiyi kimi, kəlbəcərlilər silahı, tankı, topu olmayanda belə əllərindəki silahla, çomaqla, başqa nə iləsə 20-30 nəfərlə ermənilərin qarşısını almışlar. Bu, 1918-ci ildə olmuşdur.

Şübhəsiz ki, keçən dəfə dediyiniz kimi, televiziyada göstərildiyi kimi, bu gün burada bildirdiyiniz kimi, Kəlbəcər böyük xəyanət nəticəsində verilibdir. Bizim başqa rayonların, ərazilərin əldən getməsi də xəyanət nəticəsində olubdur. Amma Kəlbəcərin əldən getməsi xüsusi xəyanətin nəticəsidir. Burada danışdınız ki, parlamentin sədri o ağır günlərdə Kəlbəcərə toya gəlmişdi. O zaman toy vaxtı idimi? Ar olsun belə adamlara! Əgər sən Kəlbəcərə gəlmisənsə, respublikanın rəhbərisənsə, sən gedib xalqla görüşməlisən, onun dərdini bilməlisən, Kəlbəcəri qorumaq üçün lazımi tədbir görməlisən.

Amma hökumətə rəhbərlik edən bir şəxsin buradan, necə deyərlər, basa-basa Kəlbəcərə toya getməsindən, orada iştirak etməsindən, sərxoşluq etməsindən böyük xəyanət ola bilməz. Bilirsiniz, belə bir insanın xalq arasına çıxmağa haqqı yoxdur – təkcə bu hərəkətinə görə. Burada yalan bir şey yoxdur. Qızğın müharibə gedən vaxtı kim toy edə bilərdi? Toy vaxtı idimi? Qan tökülürdü, insanlar şəhid olurdu, qurban gedirdi. Görün nə qədər mənəviyyatsız, nə qədər düşkün, nə qədər alçaq insanlardır ki, Bakıdan dövlət rəhbəri Kəlbəcərə gedir ki, orada icra hakimiyyəti başçısının toyunda iştirak etsin. Siz hələ dözümlüsünüz, kəlbəcərlilər. Siz gərək çomağınızı götürüb, gedib onun başını əzəydiniz orada, Kəlbəcərdən qovaydınız, deyəydiniz çıx buradan. Sizin də günahınız var. Kəlbəcərlilər həmişə döyüşkən olub, cəsur olublar. Ona xalq qarşısında gərək sual verəydiniz: sən bura niyə gəlmisən? Gəl bizə cavab ver. Ancaq bunlar olub-keçib. Mən bunlardan həyəcansız, hiddətsiz danışa bilmirəm, öz münasibətimi ancaq bu cür bildirə bilərəm.

Bu insanlar dövlətdən, hökumətdən, xalqdan öz məqsədləri üçün istifadə etməkdən ötrü hakimiyyətə gəlmişdilər. Ona görə də onları toy, araq içmək və başqa-başqa çirkin əməllər maraqlandırırdı. Amma Kəlbəcərin aqibəti maraqlandırmırdı. Kəlbəcərin işğalı ilə həmin toy arasında neçə gün fərq vardı? Təqribən bir ay, 40 gün. Fevralın 7-də toy olubdur, aprelin 2-də isə Kəlbəcər işğal edilibdir.

## "Ola bilər çörəyimiz də olmasın"

Ümummilli lider həmişə nizami ordu yaratmağın ən vacib məsələ olduğunu vurğulamışdı.O, çıxışlarından birində demişdir:

– Əgər münaqişə başlanandan bizim ordumuz olsaydı, gücümüz olsaydı, respublikanın güclü imkanları olsaydı, belə vəziyyət yaranmazdı. Tarix bunu göstərmişdir. Ancaq bizim gəncləri təşkil etmək, öyrətmək, onlarda hərbi vətənpərvərlik hissini yüksəltmək və onları hərbi peşəyə cəlb etmək işi neçə illər özbaşına buraxılmışdır. Əgər bu vəziyyət indi də davam edərsə, bilin ki, bizim nə müstəqilliyimiz olacaq, nə də Azərbaycan olacaq. Çünki bizim ətrafımız çox mürəkkəbdir, bunu bilirsiniz. Dünyada o cümlədən keçmiş Sovet İttifaqının ərazisində gedən proseslər bir-iki illik proseslər deyil, bunlar davam edəcəkdir. Buna görə də ordunu yaratmaq, onu həqiqi orduya, torpaqlarımızı etibarlı müdafiə edə bilən qüdrətli orduya çevirmək bizim müqəddəs borcumuzdur. Ola bilər çörəyimiz də olmasın, yeməyimiz də olmasın. Ola bilər ac qalaq, ola bilər paltarımız da olmasın, amma gərək ordumuz olsun.

## "Onların dediyi Allahın hökmü, Quran ayəsi deyil"

**Milli Məclisə seçkilər prosesində qüsurlar olduğu barədə bəzi xarici müşahidəçilərin rəylərinin əsassız olduğunu Londonda BBC-nin müxbirinə verdiyi müsahibədə Heydər Əliyev xüsusi vurğulamışdı.**

**Sual:** Cənab Prezident, seçkilər prosesi Qərb müşahidəçiləri tərəfindən tənqidə məruz qalmışdır. Siz də demişdiniz ki, seçkilər uğurla, demokratik yolla gedib. Siz bunu nə ilə əsaslandırırsınız? Ümumiyyətlə, xarici müşahidəçilərin rəyinə necə baxırsınız?

**Cavab:** Bilirsiniz, bu, tamamilə təbii bir şeydir. Dünyada nə var ki, onu tənqid etmək olmasın? Elə bir şey varmı? Elə BBC-ni də tənqid etmək olar. Elədirmi? Dünyada heç bir şey yoxdur ki, onu tənqid etmək olmasın. Dünyada heç bir hakimiyyət yoxdur ki, onu tənqid etmək mümkün olmasın. Heç bir tədbir yoxdur ki, onu tənqid etmək mümkün olmasın. Ona görə də seçkilərin aparılmasında buraxılan səhvlərin xarici müşahidəçilər tərəfindən göstərilməsi, ayrı-ayrı yerlərdə qanun pozuntularının göstərilməsi, yaxud da ki, tənqid o demək deyil ki, seçkilər normal keçmib. Heç vaxt ola bilməzdi ki, bütün xarici müşahidəçilər gəlib desin ki, hamısına əla qiymət verirəm. Bu, qeyri-təbii bir şey ola bilərdi… Ona görə də müşahidəçilərin tənqidlərini də təbii hesab edirəm, bəzi hallarda onların, bəlkə də qeyri-obyektiv fikirləri də var. Bunu da demək istəyirəm. Onların dediyi Allahın hökmü, Quran ayəsi deyil. Hərə öz müşahidəsini özü bildiyi kimi edir, öz fikrini özü bildiyi kimi deyir. Biz onları da qəbul edirik – obyektiv olsa da, obyektiv olmasa da. Amma, eyni zamanda, hesab edirik ki, bizim seçkilər əsasən demokratik gedibdir və deputatlar əsasən demokratik şəraitdə seçiliblər.

(ardı var)

**Faiq SADIQOV,**
**Əməkdar jurnalist**

# Ulu öndərin ideyaları Azərbaycana möhtəşəm uğurlar qazandıracaq



**Xətai Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının birgə təşkilatçılığı ilə "14 iyul 1969-cu il: Zirvəyə yüksəlişin başlanğıc tarixi" mövzusunda tədbir keçirilib.**

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirib ki, Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul tarixi ölkəmizin xilasının birinci mərhələsi, xalqın özünəqayıdış tarixidir. Azərbaycançılıq ideologiyasının təbliği və inkişaf etdirilməsi məhz o dövrdən başlanıb. Azərbaycanın müstəqil gələcəyini düşünən dahi şəxsiyyət Heydər Əliyev məhz o illərdə Azərbaycanın bu günü üçün möhkəm təməl yaradıb.

Digər çıxış edənlər – AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik Vaqif Abbasov, Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini Etibar Əhmədov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədr müavini, YAP Xətai rayon təşkilatı "Zığ yolu-4" ərazi partiya təşkilatının sədri Cəmaləddin Quliyev, Dövlət Məşğulluq Agentliyinin aparıcı mütəxəssisi Turac Məmmədova, 1969-cu ilin 14 iyul gününün tarixə Azərbaycanın özünəqayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi yazıldığını qeyd ediblər. Bildirilib ki, bu tarix, eyni zamanda, həm də milliliyin, azərbaycançılığın, milli dövlətçiliyimizin əbədi mövcudluğu günü kimi qəbul edilir. Heydər Əliyev yolu bundan sonra da Azərbaycana möhtəşəm uğurlar qazandıracaq.

# "Heydər Əliyev İli"nə həsr olunmuş tədbir

**Reabilitasiyaya ehtiyacı olan uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə Qəbələdə "Heydər Əliyev İli"nə həsr olunmuş tədbir keçirilib. Mərasim Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin nəzdində olan Qəbələ Reabilitasiya Mərkəzinin inzibati binasında baş tutub.**



Tədbirdə 70-ə yaxın xüsusi qayğıya ehtiyacı olan uşaqlar iştirak edib. Onlar tədbir müddətində musiqi ifa edib, şeir səsləndirib, səhnəciklər göstəriblər.

Sosial Xidmətlər Agentliyinin sifarişi üzrə Kənd Qadınlarına Qayğı İctimai Birliyinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə bir sıra rəsmi şəxslər də iştirakı ediblər.

***Rizvan FİKRƏTOĞLU,***
***"Xalq qəzeti"***

# Sülhün qum saatı: sonuncu dənələr harada düşəcək?

*Beynəlxalq platformada gedən sülh danışıqlarında "rəqabətədavamlı gündəlik" formalaşdırmağa çalışan İrəvan qeyri-ciddi arqumentlərdən, məzmunsuz açıqlamalardan əl çəkmir...*

*(əvvəli 1-ci səhifədə)*

### Real nəticəsiz daha bir görüş

Gözlənilən sülhün vaxtını ölçən şəffaf qum saatındakı axırıncı dənələrin harada töküləcəyi indi hamının marağındadır: Brüsseldə, Vaşinqtonda, yoxsa Moskvada? Azərbaycan üçün Ermənistanla sülh sazişinin bu şəhərlərin hansında imzalanaraq adının tarixə düşəcəyi az əhəmiyyətlidir. Bakıdan ötrü ən önəmli məsələ düşmənçiliyə – "nə müharibə - nə sülh" durumuna son verilməsi, sülh dönəminin bölgəyə daha tez qədəm qoymasıdır. İntəhası, burada vacib şərt bu təbii istəyin böyük güclərin maraqları ilə üst-üstə düşməsidir.

Bu dairənin qapanması üçün ən önəmli halqanın Rusiyanın olduğunu söyləməyə ehtiyac duyulmur. Hazırda birmənalı şəkildə qəbul edilməli həqiqət odur ki, Moskva Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanmasında, sülh danışıqlarının vasitəçisi kimi özünün siyasi eksklüzivliyini itirmək üzrədir. Həm də son vaxtlar Kreml üçün bu xoşagəlməz tendensiyanın sürəti artıb. Bu isə onu güman etməyə əsas verir ki, ABŞ və Avropa İttifaqının (Brüsselin – İ.B.) moderatorluğu ilə imzalanacaq çərçivə sazişi Moskva üçün bu arzuolunmaz tendensiyanı bir az da gücləndirəcək. Doğrudur, Kreml sözdə, guya, Qərb platformalarında aparılan sülh dialoquna tərəfdar olduğunu göstərir. Elə Brüssel danışıqlarından az öncə Rusiya XİN-in sözçüsü Mariya Zaxarova açıqlamasında demişdi ki, rəsmi Moskva digər treklərdə konstruktiv məcrada aparılan sülh prosesini dəstəkləyir. Əliyev və Paşinyanın gündəliyi bəlli olan



Brüssel görüşündən gözləntilər böyük olmasa da, İrəvanın qarşısında yeni tələblərin qoyula biləcəyi istisna edilmirdi. Bu, sülh sazişi üzrə niyyət protokolunun, yaxud bəyannamənin imzalanması ola bilərdi. Fəqət, bunların heç biri baş vermədi və Aİ Şurasının rəhbəri Şarl Mişel tərəflərin danışıqların bu raundunda sülh prinsiplərinə sadiq qaldıqlarını söyləməklə kifayətləndi. Bəli, 15 iyul Zirvəsi ilə bağlı skeptik proqnozlar verən siyasi ekspertlər yanılmadılar.

### Sözdən əmələ keçməyin vaxtıdır

Brüsseldəki şənbə Zirvəzindən əvvəl Prezident İlham Əliyev bəyan etmişdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sözdə tanıyıb, amma, bu, kağız üzərinə keçməlidir. İndiyə qədər tərəflərin imzaladığı yeganə sənəd Rusiyanın vasitəçiliyi ilə baş tutub, hərçənd, son illər Qərb vasitəçilikdə daha aktualdır, xüsusilə Brüssel formatı artıq ənənəyə çevrilib. Avropa İttifaqı artıq prosesin rəsmi formada sənədləşməsini istəyə bilər. Bu, Aİ-yə həm konkret nəticələrin əldə edilməsi, həm də Rusiyaya qarşı alternativ platformanın gücləndirilməsi baxımından lazımdır. İlham Əliyevin üçtərəfli danışıqlardan öncə Brüsselə səfəri və Şarl Mişellə 3 saat davam edən görüşü bu kontekstdə diqqət çəkir. Üçtərəfli danışıqların yeni mərhələyə daşınması üzərində müzakirələrin aparıldığı ehtimalı istisna deyil. İndiki məqamda rəsmi İrəvanın sülh sazişi ilə razılaşmayacağı aydındır. Nikol Paşinyan "Bakı-Xankəndi formatı", Qarabağ erməniləri üçün "beynəlxalq mexanizm" kimi məsələlər üzərində dayanacağı gözlənilən idi. Onun Laçın postunun açılmasına israr edəcəyi də "təbiidir". Əslində, Xankəndidəki aksiya ona danışıqlarda "ermənilər reinteqrasiya istəmirlər", "Laçın postunun açılması tələbi var" demək imkanı üçün gərək idi. Xankəndidə separatçıların təşkil etdiyi mitinq məhz buna hesablanıb. Bu baxımdan, "ümumxalq mitinqi"nin Brüssel Zirvə görüşü öncəsi Ermənistan iqtidarının sifarişi olduğunu deməyə əsas verir. Yəni bu, Paşinyanın üçtərəfli görüşə "özünəməxsus hazırlığı", bir növ oyunu idi. Ötən gün ərzində bu versiyanın doğruluğuna dəlalət edən digər məqamlar da ortaya çıxdı.

### Vaşinqtonun yeddi şərti

Ermənistanın "İravunk" nəşrinin yazdığına görə, Ağ ev İrəvanın qarşısına 7 tələb qoyub. Qəzet iddia edir ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bu yaxınlarda Vaşinqtonda səfərdə olarkən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivanla görüşüb və həmin görüşdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin mətni müzakirə olunub. "İravunk"un versiyasına görə, Ağ ev Qriqoryanın şəxsində İrəvanın qarşısına 7 tələb qoyub. Bunlar – sülh müqaviləsi ilin sonunadək, həm də yalnız Vaşinqtonda imzalanmalıdır; Ermənistan cənub rayonlarında 65 min azərbaycanlı qaçqını qəbul etməyi öhdəsinə götürməlidir; Zəngəzur bölgəsində Ermənistandakı azərbaycanlıların təhlükəsizlik problemlərini həll edəcək struktur Bakı tərəfindən açılmalıdır; Ermənistan 2026-cı ilə qədər Rusiyanın hərbi bazasını öz ərazisindən çıxarmağı və onu Şərq Tərəfdaşlığı proqramı çərçivəsində NATO-nun təlim bölmələri ilə əvəz etməyi öhdəsinə götürməlidir; İrəvan SSRİ-nin xəritələrində qeyd olunan anklavları Azərbaycana qaytarmalıdır; Zəngəzur dəhlizi beynəlxalq gömrük təşkilatının iştirakı ilə, yəni Rusiyanın iştirakı olmadan açılmalıdır; Ermənistan Qarabağdan tamamilə imtina etməlidir.

Vaşinqtonun bu tələblərinin reallığa nə dərəcədə yaxın olduğu, yaxud, ictimai rəyi "öyrənmə" niyyətini güddüyü tezliklə bilinəcək. İlk baxışda həmin tələblərin heç birində beynəlxalq hüquqa zidd nəsə yoxdur.

### Günah bizdən ötdü

Hər şeydən göründüyü kimi, Ermənistan hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü sözdə tanısa da, dediyini kağız üzərində rəsmiləşdirməyə tələsmir. Bu isə regionda, o cümlədən şərti sərhəddə, Qarabağ iqtisadi rayonumuzda gərginliyin artacağını vəd edir. Məsuliyyət isə, buna qədər törətdiyi bütün hərbi təxribatlarda olduğu kimi, yenə İrəvanın boynuna düşəcək. Yəni, bundan sonra baş verəcəklərə görə məsuliyyət daşıyacaq bir tərəf olacaq – Ermənistan. Necə deyərlər, günah adladı qarşı tərəfə.

P.S. Brüsseldə üçtərəfli sülh danışıqları başa çatmamış Rusiya XİN bəyanatla çıxış edib: "Rusiya Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşünü, ardınca isə Moskvada sülh müqaviləsinin imzalanması üçün sammit təşkil etməyə hazırdır". Rusiya XİN-nin dünən verdiyi bəyanatında daha sonra deyilir ki, bundan əvvəl əldə edilmiş razılaşmalar əsasında rəsmi Bakı və İrəvan arasında sülh müqaviləsinin hazırlanmasına dərhal başlanılmalıdır.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# BQXK-nın "vəkili" peyda oldu

*Böyük Britaniyanın İrəvandakı səfirliyi Beynəlxalq Qırmızı Xaç Komitəsinin Laçın yolunda "son dərəcə mühüm işlər" gördüyünü bildirir*

*(əvvəli 1-ci səhifədə)*

Ancaq iyunun 15-də qarşı tərəfin törətdiyi təxribat bu məntəqənin normal fəaliyyətinə mane olub. Nəticədə onun işinin ahəngi pozulub. Bundan sonra haylar bütün dünyada Azərbaycanın onları "blokada"da saxlaması barədə haray-həşir qopardılar. Bir sıra ölkələr və beynəlxalq təşkilatlar təmkinli davranaraq, ermənilərin bu təxribatına uymur, hayların xislətinin nədən ibarət olduğunu bildikləri üçün Azərbaycanın mövqeyini də dinləməyə üstünlük verirlər.

Bu istiqamətdə məyusluq doğuran son hadisə Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus nəqliyyat vasitələri ilə bağlı baş verib. Məsələ ondadır ki, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başladığı tarixdən BQXK-ya məxsus nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinə lazımi şərait yaradılıb, onlar müvafiq qaydada sərhəd və gömrük nəzarətindən keçməklə dövlət sərhədindən buraxılıblar. Lakin ötən müddət ərzində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən BQXK-ya aid nəqliyyat vasitələrində dəfələrlə qanunsuz yolla müxtəlif növ qaçaqmalın keçirilməsi cəhdləri aşkarlanıb. Bu barədə BQXK-ya rəsmi kanallar vasitəsilə xəbərdarlıq edilməsinə baxmayaraq, qanunazidd əməllər təkrar olunub və onların aradan qaldırılması üçün zəruri addımlar atılmayıb. Beləliklə, BQXK-ya məxsus olan və tibbi təxliyə həyata keçirən nəqliyyat vasitələrindən qaçaqmalçılıq üçün istifadə edilməsi Azərbaycan qanunlarının kobud şəkildə pozulması faktları olmaqla yanaşı, həm də haqlı olaraq, ölkəmizin humanitar təşkilat olan komitəyə etimadından sui-istifadə olunması kimi qiymətləndirilib. Məhz bu kimi faktlarla əlaqədar Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılıb və zəruri istintaq tədbirləri həyata keçirilənə qədər Laçındakı sərhəd nəzarət-buraxılış məntəqəsindən keçid müvəqqəti olaraq dayandırılıb. Eyni zamanda, bütün qaçaqmalçılıq faktları yerində əməliyyat çəkilişləri ilə sənədləşdirilib.

***

Ortada daşdan keçən faktların mövcudluğuna baxmayaraq, ermənilərin havadarları hadisələrə müxtəlif rənglər qatmağa, onu istədikləri kimi təqdim etməyə cəhdlər edirlər. Əfsuslar olsun ki, onların sırasına Böyük Britaniyanın Ermənistandakı səfirliyi də qoşulub. Səfirlik iyulun 15-də BQXK-nın Cənubi Qafqazdakı fəaliyyəti ilə bağlı bəyanatla çıxış edib. Diplomatik idarə bəyan edib ki, BQXK uzun illər ərzində Cənubi Qafqazda, o cümlədən Laçın yolunda son dərəcə mühüm işlər görüb. Komitənin buradakı fəaliyyəti yerli əhalinin həyati vacib mal və xidmətlər, o cümlədən xilasedici dərmanlar və səhiyyə xidmətləri əldə etməsində dəstək verməkdən ibarət olub. "Böyük Britaniya Beynəlxalq Qırmızı Xaç Komitəsinin fəaliyyətini və onun davam edən işini güclü şəkildə dəstəkləyir. Birləşmiş Krallıq bütün tərəfləri humanitar yardımı siyasiləşdirməkdən çəkinməyə çağırır", – deyə, səfirliyin bəyanatında bildirilib.

***

Qeyd edək ki, Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən BQXK ilə əməkdaşlığa hər zaman böyük önəm verib. Ölkəmiz öz üzərinə götürdüyü öhdəlikləri də vaxtlı-vaxtında yerinə yetirib. İyulun 14-də Xarici işlər naziri Ceyhun Bayramov ilə BQXK-nın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Koyiç arasında keçirilən görüşdə də ikitərəfli əməkdaşlıq məsələləri, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində yaranmış son vəziyyət, habelə BQXK-nin ölkəmizin Xankəndi şəhərində fəaliyyəti məsələləri müzakirə olunub. C.Bayramov sərhəd nəzarət-buraxılış məntəqəsinin fəaliyyəti ilə bağlı yaranmış son vəziyyətlə əlaqədar bildirib ki, iyunun 15-də məntəqənin atəşə tutulması ilə yanaşı, erməni əsilli sürücülərin BQXK-ya məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək səyləri Ermənistan tərəfinin Azərbaycanın suverenliyinə müdaxilə edən cəhdlərdən və qeyri-qanuni fəaliyyətlərdən əl çəkmək niyyətinin olmadığını göstərir.

BQXK-nin 11 iyul tarixli açıqlamasında bəyan edilməmiş məhsulların keçirilməsi fəaliyyətlərini dəstəkləmədiyini diqqətə çatdırmasının və belə yükləri daşıyan nəqliyyat vasitələrinin sürücülərinin xidməti müqavilələrinə xitam verilməsinin qeydə alındığı və təqdirəlayiq olduğu bildirilib. Gələcəkdə bu kimi halların qarşısının alınmasının zəruri olduğu vurğulanıb.



Aparılmış müzakirələr zamanı, zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd nəzarət-buraxılış məntəqəsindən keçidinin davam etməsinin mümkünlüyü Ceyhun Bayramov tərəfindən bildirilib. Erməni sakinlərin tədarük ehtiyaclarına gəldikdə isə Azərbaycan tərəfinin Ağdam–Xankəndi yolundan istifadə etmək yardım göstərmək imkanının mövcud olduğu bir daha xatırlanıb.

Yeri gəlmişkən, Qarabağ ermənilərinin reinteqrasiyasının əsas əleyhdarlarından olan Ruben Vardanyanın rəhbərlik etdiyi "Artsax təhlükəsizlik və inkişaf cəbhəsi" adlı qondarma qurum dərhal bu təklifin əleyhinə çıxıb: "Bəyan edirik ki, Azərbaycanın təklif etdiyi Ağdam–Xankəndi marşrutu bizim üçün qırmızı xəttdir və onun keçilməsinə imkan verməyəcəyik. Çünki Ağdam yolunun Sumqayıta gedən yol olması tarixin təsdiq etdiyi faktdır". Bununla da Vardanyanın ətrafında cəmləşmiş özü kimi destruktiv qrup Azərbaycanın daha bir təklifinə qarşı çıxmış olub. Ancaq onlar unudurlar ki, hər dəfə bu cür təkliflər edilməyəcək. Necə ki, Qarabağ ermənilərinə ilə görüş dəvəti iki dəfə edildi. Prezident İlham Əliyevin mayın 28-də Laçın şəhərində qayıdan əhali ilə görüşündə dediyi kimi, daha üçüncü dəvət olmayacaq: "Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək. Ona görə onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər. Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər".

Bu mənada, Qarabağ erməniləri edilən təklifləri dəyərləndirməli, BQXK kimi qayəsində humanizmin dayanmalı olduğu təşkilatlar isə onlardan sui-istifadə edilməsi hallarına imkan verməməlidirlər. Onlar kimin işlədiklərinə, avtomobillərində nələrin daşındığına xüsusi diqqət yetirməlidirlər. Əks-təqdirdə, BQXK-nin tarixinə silinməz ləkələr düşəcək.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**İlqar VƏLİZADƏ,**
**politoloq**

– Biz dəfələrlə müşahidə etmişik ki, müxtəlif ölkələrin İrəvandakı səfirlikləri daha çox Ermənistanın maraqlarına uyğun açıqlamalar yayırlar. Böyük Britaniya səfirliyi də sanki erməni tərəfinə xoş gəlmək üçün qeyd olunan bəyanatı yayıb. Ancaq diplomatlar bilməlidirlər ki, bu, Azərbaycan üçün həssas məsələdir. O cümlədən Böyük Britaniya səfirliyi başa düşməlidir ki, bu həssas məsələdə bir qədər ehtiyatla davranmaq lazımdır. Səfirliyin açıqlamasında ehtiyatlılıq görünmür. Bu, bütövlükdə, Böyük Britaniya hökumətinin yanaşması yox, səfirin təşəbbüsü kimi qiymətləndirilə bilər. Düzdür, bu, bizim üçün arzuolunmaz açıqlamadır, ancaq burada dərin siyasət axtarmaq da doğru olmazdı. Əgər bu bəyanatla Böyük Britaniya Xarici İşlər Nazirliyi çıxış etmiş olsaydı, bizim qiymətləndirməmiz də fərqli olardı.

Bir məqama da toxunmaq istərdim. Bu cür açıqlama yayan ölkələrin səfirlikləri başa düşməlidirlər ki, onlar bununla öz səlahiyyətlərini aşırlar. Laçın yolu, Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycana məxsusdur. Ermənistandakı səfirliklərin bu ərazilərdə baş verənlərə qarışmağa heç bir ixtiyarı yoxdur. Onlar öz ölkələrini Ermənistanda təmsil edirlər. Bu baxımdan onlar belə bəyanatlarla səlahiyyətlərini və hədlərini aşırlar.

Beynəlxalq Qırmızı Xaç Komitəsi digər ölkələrdə olduğu kimi, Azərbaycanda da təmsilçilik prinsipinə riayət etməlidir. Yəni, onun baş ofisi Bakıda yerləşirsə, digər bölgələrdəki təmsilçilik ofisləri, o cümlədən Xankəndidəki ofis Bakıdakı baş ofisə tabe olmalıdır. Təəssüf ki, beynəlxalq təsisatlar mövcud siyasi-hüquqi reallıqları olduğu kimi dərk edə bilmirlər. Son hadisələr göstərir ki, bu proses çox mürəkkəb və təzadlı keçir. Azərbaycan sərhədçiləri öz səlahiyyətləri çərçivəsində addım atırlar. Bu isə qıcıqla qarşılanır. Biz erməniləri və onlara qahmar duran bəzi qüvvələri başa salırıq ki, bura Azərbaycanın suveren əraziləridir. Ancaq yaxşı olardı ki, bu iş Azərbaycan sərhədçiləri tərəfindən edilməsin, onlar özləri şüurlu şəkildə bunu dərk etsinlər.

# Orta Dəhlizdə daşımaların şəbəkəsi genişlənir

## *6 ayda bu yolun Azərbaycan seqmentində 1,8 dəfə çox yük daşınıb*

*(əvvəli 1-ci səhifədə)*

Ölkə Prezidenti İlham Əliyev 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında son vaxtlar nəqliyyat sektorunun əhəmiyyətinin getdikcə artdığını vurğulayaraq bəzi məhdudlaşdırıcı tədbirlərin layıb. Prezident İlham Əliyev bununla bağlı fikrinin davamı olaraq nəqliyyat dəhlizlərinin biznesə olan təsiri haqqında konseptual qaydada müəyyən araşdırma aparılaraq konkret bir hədəfin müəyyənləşdirilməsini tövsiyə edib. Prezident deyib: "Ölkə ərazisində Cənubdan




yeni nəqliyyat marşrutlarının açılmasına gətirib çıxardığını bildirib. Azərbaycanın əlverişli coğrafi vəziyyətinin ölkəmiz üçün əlavə imkanlar yaratdığını diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Biz nəqliyyat sektorunun inkişafı ilə bağlı uzun illər ardıcıl siyasət aparırıq və öz ərazimizdə infrastrukturu, demək olar ki, əvvəlki dövrün tələbatına uyğun olaraq tam modernləşdirmişik. Amma bu gün tələbat daha da artır. Çünki yüklər artır, nəqliyyat marşrutları, qeyd etdiyim kimi məhdudlaşır. Həm Şimaldan Cənuba və əks istiqamətdə, həm də Şərqdən Qərbə və əks istiqamətdə yükdaşımaların artması göz önündədir. Burada da Azərbaycan çox etibarlı tərəfdaş kimi çıxış edir və öz qonşuları ilə sıx təmasdadır, qonşuların nəqliyyat problemlərinin həlli üçün öz köməyini də əsirgəmir".

Yeri gəlmişkən, ölkəmizin ərazisindən keçən mühüm nəqliyyat dəhlizləri yerli biznesin inkişaf etdirilməsi üçün də əlavə imkanlar yaradır. İyulun 11-də keçirilən müşavirədə Prezident İlham Əliyev bu mühüm məsələdən ətraflı bəhs edib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın böyük yükləri aşıran tranzit ölkəyə çevrilməsi ilə yanaşı, gələcəkdə nəqliyyat marşrutları üzərində istehsal sahələrinin, biznes imkanlarının yaradılmasına da nail olmaq mümkündür. Bu baxımdan Ələt Azad İqtisadi Zonasına dövlətimiz tərəfindən qoyulan sərmayə artıq nəticə verməyə baş-

Şimala və Şərqdən Qərbə gedən yollar, demək olar ki, rayonlarımızın əksəriyyətini əhatə edir. Deməli, hər bir istiqamət üzrə spesifikaya, iqlimə və ixtisaslaşmaya görə xüsusi bir biznes imkanları olmalıdır. Hökumət üzvləri bu məsələ ilə bağlı öz təkliflərini hazırlasınlar. Bizim ümumi biznesin inkişafı konsepsiyamız var, müxtəlif alətlər var, o cümlədən güzəştli kreditlər və digər alətlər. Yəni, bunu indi nəqliyyat marşrutları prizmasından da təhlil etsək, məncə yaxşı olar".

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda Çin–Qazaxıstan sərhədindən başlayan marşrut Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Orta Dəhlizlə artacaq yüklərin optimal ötürülməsi məqsədilə zəruri infrastrukturun genişləndirilməsi, dəhliz boyu ölkələrin vahid tarif siyasətinin formalaşması istiqamətində aparılan məsələlərin beynəlxalq səviyyədə uğurla müzakirə edilməsi, eləcə də bu istiqamətdə ölkəmizdə vahid nəqliyyat sistemi və gömrük əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi istiqamətində aparılan uğurlu işlər gələcəkdə bu dəhlizlə daşımaların \sürətlə artmasına səbəb olacaq. Eyni zamanda, Orta Dəhlizin potensial imkanlarından səmərəli istifadə edilməsi əlverişli coğrafi mövqedə yerləşən Azərbaycanın iqtisadiyyatının dayanıqlı və davamlı inkişafına mühüm töhfə verəcək.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi

**Təbriz YADİGAROV,**
**Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**



Orta Dəhlizdən keçən blok qatarı Çindən Avropaya yükləri orta hesabla 20-25 günə çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir. Hazırda 10 milyon metrik ton və ya hər 200 min konteynerlə qiymətləndirilən bu marşrutun potensialının Azərbaycan, Qazaxıstan və Gürcüstan tərəfindən genişləndirilməsi istiqamətində mühüm işlər görülür.

Nəqliyyat marşrutlarının şaxələndirilməsi və yüklərin çatdırılma sürətinin təmin edilməsi üçün Orta Dəhliz ölkələri tərəfindən tariflərin formalaşdırılması, yüklərin bəyan edilməsi və tranzit yüklərin konsolidasiyası məsələləri ilə məşğul olacaq müəssisənin yaradılmasına ciddi ehtiyac duyulurdu. Bu məqsədlə 2023-cü il iyunun 22-də Azərbaycan və Qazaxıstan arasında nəqliyyat və logistika sektoru, rəqəmsallaşma, turizm, idman və mədəniyyət sahələrində əməkdaşlığı gücləndirmək üçün sənədlər paketi imzalanıb. Sözügedən paketdə Orta Dəhlizin inkişafı məqsədilə iki ölkənin dəmir yolu şirkətlərinin nümayəndələri tərəfindən birgə logistika şirkətinin yaradılması ilə bağlı saziş mühüm əhəmiyyət daşıyır. Sazişə əsasən, tariflərin unifikasiyası və bütün yüklərin Orta Dəhlizdə emalı ilə vahid şirkət məşğul olacaq. Şirkətin əsas vəzifəsi Çin və Avropa arasında yükdaşımaları həyata keçirmək, bütün prosesləri mümkün qədər sadələşdirməkdən ibarət olacaq. Yeri gəlmişkın, əvvəllər marşrut boyu yüklərin çatdırılma müddəti 53 gün idisə, hazırda 18-23 günə endirilib. Yeni şirkət isə 2023-cü ildə yüklərin çatdırılma müddətini 18 zəmanətli günə, daha sonra 10-15 günə endirəcək.

Yeri gəlmişkən, Transxəzər marşrutunu gəmilərsiz təsəvvür etmək mümkün deyil. Son dövrlər ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanmasının tərkibinin yenilənməsi dəniz nəqliyyatının rəqabətqabiliyyətini yüksəldərək bu dəhlizin potensial imkanlarından istifadəni xeyli genişləndirib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ilin yanvar-iyun aylarında dəniz nəqliyyatında yükdaşımaların həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21,7 faiz artaraq 4 milyon 514 min 700 ton təşkil edib. Ölkəmizin dəniz limanları tərəfindən isə 2023-cü ilin birinci yarımilliyində 6 milyon 328 min ton yükaşırma işləri həyata keçirilib ki, bunun da 82,4 faizi tranzit yüklərin payına düşüb.

Ümumilikdə, hesabat dövründə idxal-ixrac əməliyyatları üzrə 29 milyon 910 min 271 ton yük daşınıb. Bunun isə 4,8 faizi dəniz nəqliyyatına, 12,7 faizi dəmir yolu nəqliyyatına, 8,7 faizi isə avtomobil nəqliyyatına aid olub. Xarici ticarət əməliyyatları üzrə nəqliyyatın bütün növləri ilə daşınan yüklərin dəyəri isə həmin dövr üzrə 26 milyard 166 milyon 413 min ABŞ dolları təşkil edib.

# Sahibkarlara maliyyə dəstəyi artır



**Sahibkarlığın İnkişafı Fondundan aldığımız məlumata əsasən, bu ilin I yarısında İqtisadiyyat Nazirliyi yanında fəaliyyət göstərən bu qurum sahibkarların təqdim etdikləri 971 layihənin maliyyələşdirilməsinə 51,9 milyon manat kredit verib. Həmin güzəştli kreditlər hesabına 765 yeni iş yerinin yaradılması nəzərdə tutulub.**

Xatırladaq ki, kredit əsasən fərdi sahibkarlar tərəfindən alınıb. Dövlət Statistika Komitəsindən bildirildiyinə görə, cari il iyulun 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 275 mini ötüb. Hesabat dövründə hər dörd fərdi sahibkardan üçü kənd təsərrüfatı, ticarət, nəqliyyat və digər sahələrdə xidmətlərin göstərilməsi sahələri üzrə qeydiyyatdan keçib. Onların əsas hissəsi Bakıda (27 faiz), Lənkəran-Astara (10,2 faiz), Qazax-Tovuz (7,8 faiz) və Mərkəzi Aran (7 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb.

# Azərbaycanda illik inflyasiya 13 faizdən aşağıdır

**Bu ilin yanvar-iyun aylarında Azərbaycanda istehlak qiymətləri indeksi ötən ilin müvafiq dövrünə nisbətən 112,7 faiz təşkil edib. Müqayisə üçün qeyd edək ki, yanvar-may aylarının yekununda ölkədə illik inflyasiya 13,1 faiz olub.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, istehlak qiymətləri indeksi ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 115,1 faiz, qeyri-ərzaq məhsulları üzrə 111,4 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 110,5 faiz təşkil edib. İyun ayında isə istehlak qiymətləri indeksi əvvəlki ayla müqayisədə 99,1 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 110,6 faiz olub.

Ötən ay ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi aprellə müqayisədə 97,9 faiz, ötən ilin iyun ayına nisbətən isə 111,5 faiz təşkil edib. İyun ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki ayla müqayisədə 100,1 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 110,3 faiz olub.

Komitənin məlumatında bildirilir ki, bu ilin iyun ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki ayla müqayisədə 100,1 faiz, ötən ilin müvafiq dövrünə nisbətən isə 109,8 faiz təşkil edib.

**"Xalq qəzeti"**

# İslahat paketləri uğurla icra edilir

## Büdcə gəlirlərinin artması yeni layihələrə maliyyə təminatı yaradıb



**Bu ilin ilk yarısında ölkəmizin iqtisadiyyatında artım müşahidə olunub. Bu, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın həssas olduğu bir dönəmdə baş verib. İqtisadiyyatın qeyri-neft-qaz sənayesində artım neft-qaz sənayesindəki artımı üstələyib. Bu sahədə əlavə dəyər hesabat dövründə 6,5 faiz yüksəlib. Ümumi olaraq qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə edilib.**

Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı tərəfindən səsləndirilən bu rəqəmləri şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Günay Quliyevanın sözlərinə görə, cari il ölkəmizin sosial-iqtisadi inkişaf proqnozlarında neftin qiyməti hər barel üçün 50 ABŞ dolları nəzərdə tutulduğu halda, hesabat dövründə "Azeri Light" (CIF) markalı neftin bir barelinin orta qiyməti 82,84 ABŞ dolları təşkil edib. Bu artımla yanaşı, vergi və gömrük orqanlarında aparılan islahatlar və şəffaflığın təmin edilməsi nəticəsində 2023-cü ilin yanvar-may ayları ərzində vergi yığımları ötən illə müqayisədə 45 faiz və ya 2,6 milyard manatdan çox artıb. Bu isə öz növbəsində 2023-cü ilin ilk 6 ayında büdcə profisiti yaratmaqla büdcəmizi rekord həddə çatdırıb.

Yeri gəlmişkən, hər iki sahədə–vergi və gömrükdə cari ilin ilk yarısı üçün büdcə daxilolmalarını da xatırlatmaq istərdik. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xətti ilə ilin ilk yarısında dövlət büdcəsinə vergi daxilolmalarının məbləği ötən ilin eyni dövrü ilə müqayisədə 41,6 faiz artaraq 9 milyard 181,4 milyon manat təşkil edib. Altı aylıq vergi daxilolmalarının 5 milyard 199,4 milyon manatı qeyri-neft-qaz sektorunun hesabına formalaşıb və bir il əvvələ nisbətən 18,2 faiz çox olub.

Beləliklə, iqtisadiyyatda şəffaflaşmanın artması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması vergi daxilolmalarının dinamik artımı ilə nəticələnib.

Gömrük daxilolmalarında da yüksək göstərici əldə edilib. Belə ki, Dövlət Gömrük Komitəsi 2023-cü ilin yanvar–iyun aylarında dövlət büdcəsinə 3 milyard 75 milyon 365,8 min manat məbləğində vergi və rüsum köçürüb. Komitədən verilən məlumata görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 21,1 faiz çox olub.

Rəqəmlərdən göründüyü kimi, hesabat dövründə dövlət büdcəsinin gəlirlərinin proqnozlara qarşı əhəmiyyətli dərəcədə çox olması bu ilin dövlət büdcəsində əlavə maliyyə resurslarının yaranmasını və onların yenidən bölünməsini gündəmə gətirib. Bununla bağlı 2023-cü il iyunun 16-da "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun qəbul edilib. Sənədə əsasən, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin təsdiq olunmuş 33353,3 milyon manat məbləğində xərcləri 3271,5 milyon manat və ya 9,8 faiz artırılaraq 36624,8 milyon manata çatdırılıb.

Dürüstləşmə ilə 2023-cü il üçün təsdiq olunmuş büdcəyə 3 milyard manatdan çox vəsait əlavə olunub. Əlavə vəsaitin əhəmiyyətli hissəsi Azərbaycan Respublikasının işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərə, müdafiə xərclərinə yönəldilib.

Əlavə olunan 3 milyard manatın 1,8 milyardı düşməndən təmizlənən ərazilərimizdə bərpa-quruculuq işlərinə, 1,1 milyard manat isə hərbi gücümüzün artırılmasına yönəldilib. Dövlət büdcəsinə edilən son dəyişikliklərlə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə ayrılan vəsait 4,8 milyard manata, müdafiə və milli təhlükəsizlik xərcləri isə 6,05 milyard manata qaldırılıb. Bu isə əhalinin həmin ərazilərə qısa müddətdə geri qaytarılması və ölkə təhlükəsizliyinin təmin olması prioritetindən irəli gəlib.

Əlbəttə, bu uğurlu göstəricilərin əldə olunması ilə ölkəmizin maliyyə vəziyyəti böyük dərəcədə yaxşılaşıb. Bunun səbəbləri ilə bağlı isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə deyib: "Bu, ik növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi–bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq. Bu, çox sevindirici haldır, çünki proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanmışdır. Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə çatmışdır, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. Ancaq ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik. Bu gün bizim büdcəmiz 36 milyard manatdan çoxdur. Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, bir daha demək istəyirəm ki, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və bizim hərbi gücümüzü artıraq".

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



Azərbaycanın qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən rəqəmlər əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq-iqtidar birliyi, təhlükəsizlik təmin edilib, əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunun 1-ci və 2-ci maddələrində edilən dəyişikliklərə görə, diqqətə çatdırdığımız amillərə əsaslanan yüksək göstəricilər dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirib. Həmin amillər sırasında, ilk növbədə, işğaldan azad olunan Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı və sürətli bərpa-yenidənqurma işlərinin aparılması, vaxtilə öz doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın mərhələli şəkildə ata-baba yurdlarına qayıdışının təmin edilməsi, bu zəmində ölkə Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasının sürətləndirilməsi prioritetləri xüsusu yer tutub.

Büdcəyə dəyişikliklərin edilməsini zəruri edən məsələlərdən biri də Silahlı Qüvvələrimizin müdafiə qabiliyyətinin artırılması, ölkənin sərhədlərinin möhkəmləndirilməsi, daxildə və xaricdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, dünyada gedən geosiyasi proseslərə, artan təhdidlərə və təhlükələrə, habelə qonşu dövlətlər tərəfindən respublikamıza qarşı baş qaldıra biləcək istənilən təhdidin qarşısının alınması üçün hazırlıq səviyyəsinin yüksəldilməsidir.

Bütün bunlarla bərabər, beynəlxalq yardım proqramları və müqavilələr üzrə imzalanan öhdəliklərin qarşılanması, dövlət borcunun idarə edilməsi üzrə yeni yanaşmanın tətbiqi və bir sıra digər zəruri dövlət xərclərinin həyata keçirilməsi üçün dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirib.

Nəticələr və vəzifələr

# Bakı Şəhər Prokurorluğu ilin I yarısında

**Dünən baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Bakı şəhərinin prokurorluq orqanları tərəfindən 2023-cü ilin birinci yarısı ərzində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**




Baş prokuror 2023-cü ilin "Heydər Əliyev İli" elan edildiyini bildirib, Ümummilli liderin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi barədə məlumat verib. Ulu öndərin siyasi kursunun layiqli davamçısı, dövlətimizin başçısı Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə müvəffəqiyyətlə həyata keçirilən siyasət nəticəsində bütün sahələrdə inkişaf və tərəqqinin qeydə alındığı vurğulanıb.

Bakı şəhər prokuroru Elşən Abbasov bildirib ki, 2023-cü ilin birinci yarısında paytaxtın prokurorluq və daxili işlər orqanları üzrə cəmi 8 min 552 cinayət hadisəsi qeydə alınıb və onların 88,5 faizinin açılması təmin olunub. Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində törədilən 24 qəsdən adam öldürmə və 11 qəsdən adam öldürməyə cəhd cinayətlərinin, həmçinin ötən illərdən bağlı qalan 1 qəsdən adam öldürmə cinayətinin açılması təmin edilib.

Özünü öldürmə həddinə çatdırma, qəsdən sağlamlığa ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq, qaçaqmalçılıq, xuliqanlıq, narkotik vasitələrlə bağlı cinayətlərin sayı azalıb, iqtisadi sahədə, o cümlədən korrupsiya, qulluq mənafeyi və mülkiyyət əleyhinə olan cinayətlərin sayında isə artım müşahidə olunub.

Qeyd edilib ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 122 cinayət işinin ibtidai istintaqı tamamlanıb, onlardan 83 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilib. Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 3 milyon 139 min 311 manat məbləğində maddi ziyanın 1 milyon 659 min 584 manatının və ya 52,9 faizinin ödənilməsi təmin olunub.

Hesabat dövründə xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılıb, şəhər prokurorluq orqanları əməkdaşlarından 6 nəfər intizam məsuliyyətinə cəlb olunub, onlardan 1 nəfərə töhmət, 3 nəfərə şiddətli töhmət verilib, 1 nəfərə irad tutulub, 1 nəfər tutduğu vəzifədən azad edilib.

Baş prokuror Kamran Əliyev müşavirəyə yekun vuraraq Bakı Şəhər Prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək, görülən işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar verib.

**"Xalq qəzeti"**

# Kanada mətbuatı: Fransa Cənubi Qafqazda sabitliyi pozur

**Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, bu barədə Kanadanın nüfuzlu "Thej.ca" media platformasında dərc edilmiş "Fransanın Ermənistan–Azərbaycan münaqişəsində rolu geosiyasi maraqlarla bağlı suallar doğurur" sərlövhəli məqalədə qeyd olunub.**

Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avrahamın qələmə aldığı məqalədə diqqətə çatdırılıb ki, Fransanın Ermənistanı hərbi cəhətdən dəstəklədiyi barədə məlumatlar mövcuddur.

Müxtəlif siyasi ekspertlərin fikirlərinin yer aldığı məqalədə Fransanın uzun illərdir ki, irqçi davranışlarına görə qınaq obyekti olduğu qeyd edilib. Təəssüflə bildirilib ki, Afrikanın bir çox ölkəsi Fransanın onların tarixindəki müstəmləkə keçmişinə görə üzr istəməsini gözlədiyi halda, adıçəkilən ölkənin Afrikaya bərabərhüquqlu tərəfdaş kimi yanaşması müşahidə olunmur.

Yazıda qeyd edilib ki, qərəzli davranışları səbəbindən Fransa Ermənistanla Azərbaycan arasında danışıqlar prosesində iştirak edən obyektiv ölkə kimi mövqeyini itirib və Azərbaycan açıq şəkildə ermənipərəst mövqe tutduğuna görə Fransanın sülh prosesində iştirakı ilə razılaşmır. Fransanın Ermənistanı dəstəkləməsi, birincisi, bu ölkədəki nüfuzlu erməni diasporu sayəsindədir, ikincisi, Fransa Cənubi Qafqazda öz təsirinə malik olmaq istəyir. Bir neçə ay əvvəl Ermənistana humanitar missiyanın göndərilməsi ilə bağlı qərarın qəbul edilməsi də sözügedən səbəbdən qaynaqlanır.




Eyni zamanda, diqqətə çatdırılıb ki, Fransa İrəvanı sülh müqaviləsi bağlamağa sövq etmək əvəzinə, sırf öz maraqlarından çıxış edərək Ermənistanı dəstəkləyir ki, bu da nə Ermənistana, nə də Fransaya sərf edir. Fransanın sözügedən siyasəti Ermənistandakı millətçi qruplara yalnız ümid verməklə tərəfləri sülh sazişinə yaxınlaşdırmır. Bir sözlə, Fransa Azərbaycanın tərəfində olan beynəlxalq hüquqa zidd siyasəti ilə bölgədə sabitliyi pozur.

**"Xalq qəzeti"**

Sosial sfera yenilikləri

## 32 mindən çox şəxsə bərpa-sağlamlıq xidməti göstərilib



**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2023-cü ilin 6 ayında 25,5 min şəxsə əlillik təyin edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda deyilir.**

Həmçinin bildirilir ki, onlardan 12 min 200 nəfərinə ilkin, 13 min 300 nəfərinə isə təkrar əlillik təyinatı aparılıb. Qeyd edilir ki, əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir. Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin olunur.

Son 6 ayda agentliyin reabilitasiya müəssisələrində əlilliyi olan 32 min 100 şəxsə reabilitasiya xidməti göstərilib və 6 min 100 əlil 38 min 600 reabilitasiya vasitəsi ilə təmin edilib.

## Pensiyalara ödənilən vəsait artıb



**Nazirlikdən bildiriblər ki, 2023-cü ilin 6 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 16 faiz (402 milyon manat) çox olmaqla 2 milyard 843 milyon manat vəsait yönəldilib.**

Bu ilin əvvəlindən reallaşdırılan növbəti sosial islahat paketi çərçivəsində minimum pensiya da fevralın 1-dən 240 manatdan 280 manata çatdırılıb. Keçən il pensiyaçılara verilən maddi yardımlar 2023-cü ilin əvvəlindən onların pensiyaları tərkibinə daxil edilərək pensiyaları artırılıb. Həmin artım tətbiq edildikdən sonra pensiyaların 2022-ci il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun olaraq 14,7 faiz indeksləşdirilərək artırılması təmin edilib.

Pensiyaların orta aylıq məbləği son 6 ayda 18 faiz artaraq 433 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 466 manata çatıb. Bu ilin yanvar-iyun ayları ərzində 18 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 89 min 500 pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

**Z.HÜSEYNOVA,**
**"Xalq qəzeti"**

# Azərbaycan yalnız İsrailin deyil, həm də Qərbin böyük dostudur

**Bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın ölkəsinin geniş oxucu kütləsinə malik "İsrael Hayom" nəşrində dərc olunmuş məqaləsində yazıb.**



"Nə üçün İsrail İran təhlükəsi qarşısında Azərbaycana kömək etməlidir?" sərlövhəli məqalədə qeyd olunub ki, İsrail kimi Azərbaycan da ona qarşı birmənalı sayılmayan yanaşmalar səbəbindən İran təhlükəsi qarşısında Qərb paytaxtlarında çox ehtiyac duyulan dəstəyi əldə etmək üçün çətin mübarizə aparır. İrandan qaynaqlanan ekzistensial təhlükə ilə üzləşən İsrailə qarşı fələstinlilərin yürütdüyü boykot və sanksiya hərəkatı Qərbdə İsrailə qarşı sanksiyaların tətbiq edilməsini hədəflədiyi kimi, erməni lobbisi də Kapitoli təpəsində analoji təhdid altında olan Azərbaycan əleyhinə fəaliyyət aparır və bu vəziyyət Tehrandakı mollaların həm Azərbaycana, həm də İsrailə qarşı düşmənçiliyini körükləyir. Sabiq nazir bu mənada ölkəsinin dost Azərbaycanı bütün vasitələrlə müdafiə etməsini alternativsiz seçim adlandırıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan təkcə İsrailin deyil, həm də Qərbin etibarlı dostudur. NATO-nun baş katibi Yens Stoltenberq Azərbaycanı "dəyərli tərəfdaş" adlandırıb və bu, ölkəmizin Əfqanıstandakı NATO missiyasına verdiyi töhfə ilə bağlı olub. Belə ki, Azərbaycan Türkiyə ilə birlikdə Kabildə həyata keçirilən təxliyə prosesləri zamanı Həmid Kərzai adına hava limanının təhlükəsizliyini təmin edib və nəticədə talibanlar tərəfindən ələ keçirilmiş ölkədən QHT və hökumət işçilərinin təhlükəsiz təxliyəsinə imkan yaradıb. Məqalədə Ceymstaun İnstitutuna istinadən bildirilib ki, Azərbaycanın NATO səylərinə töhfəsi 2002-ci ildə 22 sülhməramlı ilə başlayıb və missiyaların bitirəndə onların sayı 120-yə çatıb. Azərbaycan sülhməramlıları NATO missiyasına quruda dəstək verməklə yanaşı, zəruri hərbi təchizatın təxminən 40 faizini tranzit marşrutları ilə təmin etməklə Əfqanıstandakı müttəfiq qüvvələrin maddi-texniki təminatını asanlaşdırıb.

Eyni zamanda qeyd olunub ki, Stoltenberq Ukraynadakı müharibədən sonra kəskin qaz və neft çatışmazlığı ilə üzləşmiş bir sıra NATO üzvü ölkələrinə Azərbaycanın qaz tədarükünü də yüksək qiymətləndirib. İsrailli politoloqun fikrincə, Azərbaycan Rusiyanın Avropaya qaz tədarükünü tam əvəzləməsə də, Avropanın Rusiya qazı və neftindən asılılığını azaltmaqda mühüm rol oynayır.

Sonda sabiq nazir belə qənaətə gəlib ki, Qərb İsrailin İranla bağlı narahatlığını nəzərə almalı olduğu kimi, Azərbaycanın da eyni qəbildən olan narahatlığını nəzərə almalıdır. Çünki İsrail və Azərbaycanın İran təhlükəsi ilə bağlı narahatlığı Ukraynanın Rusiya ilə əlaqədar narahatlığından heç də az əhəmiyyət kəsb etmir. Buna görə də Qərb İranın nüvə təhlükəsinə necə cavab verəcəyini düşünərkən İsrail və Azərbaycan da mollalarla danışıqlar masası arxasında söz sahibi olmalıdır.

**"Xalq qəzeti"**

# Ölkədə orta aylıq əməkhaqqı 11 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-may aylarında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrünə nisbətən 11,1 faiz artaraq 917 manat təşkil edib.**



Məlumata görə, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Bu il iyunun 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 20,3 min nəfər və yaxud 1,2 faiz artaraq 1 726,3 min nəfər olub. Onlardan 898,6 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 827,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

**"Xalq qəzeti"**

# Ermənilər AZAL-ın təyyarəsinə radiomaneələr tətbiq edib

**Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikasının ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən ölkəmizin hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı radiomaneələr tətbiq olunur. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**



İyulun 13-də saat 11:54-dən 12:07-dək Zəngilan-Füzuli və saat 13:02-dən 13:17-dək Füzuli-Bakı marşrutları üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarına məxsus Gulfstream G280 sərnişin təyyarəsinə qarşı radiomaneələrin tətbiqi nəticəsində onun GPS peyk naviqasiya sistemində fasilə yaranıb.

Bildiririk ki, qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı əvvəllər də radiomaneələrin tətbiq edilməsi faktı qeydə alınıb.

Bu kimi halların hava uçuşlarının təhlükəsizliyinə ciddi təhdid təşkil etdiyi barədə Rusiya sülhməramlı kontingentinin komandanlığına tərəfimizdən dəfələrlə edilən müraciətlərə baxmayaraq, heç bir tədbir görülməyib.

**"Xalq qəzeti"**

# Gömrük xidməti büdcəyə 3 milyard manatdan çox vəsait qazandırıb



**İqtisadiyyat naziri Mikayıl Cabbarov iqtisadiyyatda şəffaflaşmanın artması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması və biznes fəaliyyətinin leqallaşdırılmasının vergi daxilolmalarının dinamik artımı ilə nəticələndiyini deyib.**

Nazir bildirib ki, bu ilin ilk yarısının yekunlarına görə, Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 41,6 faiz artaraq 9 milyard 181,4 milyon manat təşkil edib. Bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 18,2 faiz artaraq 5 milyard 199,4 milyon manat olub.

Dövlət Gömrük Komitəsi (DGK) isə 2023-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinə 3 milyard 75 milyon 365,8 min manat məbləğində vergi və rüsum köçürüb.

DGK-dən verilən məlumata görə, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 21,1 faiz çoxdur. Hesabat dövründə dövlət büdcəsinə daxil olan gömrük rüsumlarının həcmi ötən ilin analoji dövrü ilə müqayisədə 20,4 faiz artaraq 768 744,1 min manat təşkil edib. ƏDV üzrə daxilolmalar isə 21,3 faiz artaraq 2 milyard 186 milyon 168 min manata bərabər olub. Aksizlər üzrə cari ilin ilk altı ayında daxilolmalar 39,2 faiz artaraq 97 milyon 361,5 min manat təşkil edib.

**"Xalq qəzeti"**

# Müdafiə Nazirliyi məlumat yaydı

İyulun 15-i saat 10:00 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# İrəvan xanlarının diplomatik məktubları

## *Bu külliyyat Qərbi Azərbaycanın kimlərin olduğunu təsdiq edir*

**1747-ci ildə Azərbaycanda yaranan kiçik feodal dövlətlərdən biri də İrəvan xanlığı olub. Əsasən Qacarların idarə etdiyi bu xanlıq da Naxçıvan xanlığının siyasi taleyini yaşamışdır. O da Naxçıvan xanlığı kimi 1747–1797-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə isə bu ərazi Qacarlar dövlətinin hökmdarı Fətəli şahın hakimiyyəti altına keçmişdir.**



İrəvan xanının qəbul otağı. Rəssam Q.Qaqarin.

Tarixən qədim Azərbaycan torpaqlarını əhatə edən İrəvan xanlığı mürəkkəb və uzun tarixi yol keçmişdir. Sovet hakimiyyəti illərində erməni tarixşünasları İrəvan xanlığının yaranması, ictimai-iqtisadi vəziyyəti və siyasi tarixi haqqında arxiv sənədlərini öz xeyirlərinə dəyişmiş, uydurma kitablar yazmışlar. Bu azmış kimi, İrəvan və Naxçıvan xanlıqlarının tarixini heç zaman mövcud olmamış "Şərqi Ermənistan"la bağlayıb ictimaiyyəti aldatmışlar.

Bu sırada M.Q. Nersesyanın, Q.A. Ezovun, B.M. Arutyunyanın, V.R. Qriqoryanın saxtalaşdırmalarında olan kobud saxtalaşdırma və uydurmalarını İrəvan xanlığı haqqında tədqiqat aparmış alimlərimiz tarixi faktlarla, ilkin mənbə olan arxiv sənədləri ilə təkzib etmişlər. Fuad Əliyevin və Urfan Həsənovun "İrəvan xanlığı" (1997 və 2007-ci illər nəşri) , "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" (2010) monoqrafiyalarında əsl tarixi həqiqət elmi əksini tapıb.

Naxçıvan xanlığının tarixinə dair yazılmış monoqrafiyalarda da İrəvan xanlığı ilə bağlı xeyli məsələlərə toxunulmuşdur. Hər bir xanlığın tarixində olduğu kimi, İrəvanın dövlət idarəçiliyində xarici siyasət əsas yer tutur. Gürcüstanın paytaxtı Tiflis şəhərindəki Milli Əlyazmalar Mərkəzində rus şərqşünası Konstantin Nikolayeviç Smirnovun fondunda XVIII əsrdə İrəvan xanlarının qonşu dövlətlərlə yazışmaları (məktublar külliyyatı) saxlanılır.

İrəvan xanlarının məktublarını (197 məktub) 1936-cı ildə K.N. Smirnov kitab kimi nəşrə hazırlasa da, bugünədək həmin toplu nəşr olunmamışdur. Alimin "Giriş"də yazdıqlarından məlum olur ki, o, həmin dövrdə ərəbşünas Cahangir Qayıbovla birlikdə İrəvana yaradıcılıq ezamiyyətinə getmişdir.

Smirnovun yazdığına görə, məktubların orijinalı Ermənistanın Ədəbiyyat Muzeyində saxlanılır. Yazışmaların əksəriyyətinin fars dilində, bir neçəsinin isə ərəbcə olduğunu qeyd edən tərcüməçi daha sonra bildirir ki, diplomatik yazışmaların hamısının fotosurətini çıxartmış və gətirib Tiflisdə Dövlət Tarix Muzeyinə təqdim etmişdir .

Maraqlı haldır ki, şərqşünas Smirnov İrəvan xanlarının diplomatik məktublarını olduqca səmimi bir dillə təqdim etmişdir. O, bu məktublarla tanış olandan sonra Rusiya hərbiçilərinin Azərbaycan xanlıqları, o cümlədən İrəvan xanlığı haqqında bəsit fikirlərini kəskin tənqid etmişdir. Hətta, göstərmişdir ki, bu diplomatik yazışmalara ancaq qibtə etmək olar. Bu yerdə deyək ki, Məhəmməd xanın hakimiyyəti dövründə İrəvan xanlığının diplomatiyasının yüksək səviyyədə olduğunu önə çəkən müəllif yazmışdır: Görəsən, gənc xanın apardığı siyasətin arxasında kim dayanır?

Müəllif belə bir maraqlı suala özü də cavab verir: Bəzən deyirlər ki, diplomatik yazışmaların əsas müəllifi onun anasıdır. Amma bu doğru deyil. Çünki son illərdə aparılan araşdırmalar təsdiq edir ki, həyata keçirilən xarici siyasətin arxasında Qacarların kürəkəni, Məhəmməd xanın bacısının əri naxçıvanlı Kalbalı xan Kəngərli dayanırdı. Əslində, alim dolayısı yolla bu suala belə bir sualla da cavab vermişdir: Ağıllı bir siyasəti istiqamətləndirən İrəvan Taleyranı kimdir? Sonra alim yazmışdır: "Gənc xan belə yüksək səviyyədə hərəkət edə bilməzdi, ola bilər, bəlkə, bu onun Şadlı tayfasından olan anasıdır?".

Həmin illər İrəvan xanlığını idarə edən "İrəvan Taleyranı" məhz Kalbalı xan idi. Yeri gəlmişkən, Smirnov məktublarda rast gəldiyi bir fikri burada da təkrarlayır: "Məhəmməd xanın anası Şadlı tayfasındandır".

Onun anasını gürcü qızı yazanlar səhv edirlər. Smirnov qeyd ermişdir ki, məktublar külliyyatı nəfis xətlə yazılıb. Elə şairanə dildə yazılıb ki, bəzi yerləri tərcümə etməkdə çətinlik çəkirdik.

Bu məktublarda İrəvan xanlığının münşisi (katibi) Mirzə Məhəmməd Müslüm (ədəbi ləqəbi Əl-Qüdsi) haqqında da ətraflı məlumat vardır. Elə məktublar külliyyatını nəfis, orijinal və diplomatik dillə hazırlayan da Qüdsi olmuşdur.

K.N. Smirnov Qüdsi və onun yazı üslubu haqqında danışmaqla bərabər, həm də qeyd edir ki, Qüdsinin özü belə yazı formasına, təxminən, 40 səhifə ithaf etmişdir. Münşinin üslubu haqqında Smirnov yazmışdır: "Qüdsinin üslub nümunələri göstərir ki, ruslar Cənubi Qafqazın əyalətlərini tutmazdan əvvəl yuxarı təbəqənin mədəniyyət səviyyəsi işğalçıların fikirləşdiyi qədər köhnə, bəsit olmayıb. Xanlar təhsilli insanlarda elmi yarımçıqlıq hiss olunmasından utanardılar".

Naxçıvan ölkəsinə aid yazdığı kitablarda Smirnov müəyyən qədər ermənipərəst mövqe tutsa da, İrəvan xanlarının məktublarından vəcdə gəldiyini gizlətməmişdir. Və bu çapa hazır kitablarda Yermolovu, Qriboyedovu və Sisiyanovu tənqid atəşinə tutmuşdur. "Məktublar külliyyatı"nı elmi dövriyyəyə daxil etmədən İrəvan və Naxçıvan xanlıqları haqqında ətraflı, doğru-dürüst söhbət açmaq, yazmaq mümkündürmü? Əlbəttə ki, yox!

Külliyyatda Türkiyə hökuməti ilə 13 məktub, o cümlədən Həsənəli xanın (Sarı Aslanın) 3 məktubu aşkar edildi. Dağıstan ləzgilərinə ərəb dilində yazılmış 6 maraqlı məktub və gürcülərlə, ruslarla diplomatik yazışmalardakı tarixi həqiqət xanlıqlar dövründə aparılan xarici siyasət barədə bəzi tədqiqatçıların yazdıqları ilə üst-üstə düşmür.

İndi "Məktublar külliyyatı"nın orijinalının fotosurətləri üzərində işləyirik. Əgər indi İrəvanda, Üçkilsədə (Matenadaranda) saxlanılan orijinallara əlimiz çatmırsa, Smirnovun 1936-cı ildə İrəvandan Tiflisə gətirdiyi fotosurətlər köməyimizə çata bilər. K.N. Smirnovun şəxsi arxivindəki çapa hazırlanmış kitabları nəşr etdirə bilsək, xalqımız bundan çox faydalana bilər.

Burada bir haşiyə çıxmaq yerinə düşərdi. Smirnov yazmışdır: "1936-cı ilin əvvəlində 564 sənədi (12 qovluqda) Tiflisə gətirdim. Onlar əsasən fars və türk, bir neçəsi isə ərəb dillərində idi. Ən köhnə sənədlər XVI əsrə aiddir". Əlbəttə, alim sənədlərin orijinalını yox, fotosurətini dövlətin tapşırığı ilə Tiflisə gətirmişdir. Onun yazdığına görə, Qafqazda "Şərq dillərində olan sənədlərin kolleksiyası" Gürcüstan Dövlət Tarix Muzeyində olub. İndi zaman Azərbaycanın xeyrinə işlədiyindən, ciddi elmi axtarışlar bu sənədləri də üzə çıxara bilər.

K.N. Smirnovun şəxsi arxivində 13 səhifəlik bir əlyazma da saxlanılır. "Cənubi Qafqazın xanlıqları XVI–XIX əsrin sənədlərində". Burada Naxçıvan xanlığından da ətraflı söhbət açılır.

Həmçinin, 50 səhifəlik "Eçmiədzin–İrəvan sənədləri" (Üçkilsə arxivindən gətirilən) bizim tariximizi əks etdirir. İrəvan xanlarının "Məktublar külliyyatı"nda Naxçıvan xanı Abbasqulu xanın İrəvan xanı Hüseynəli xana yazılmış məktubuna cavab olaraq onun Naxçıvan xanına, Kəngərli tayfasının ağsaqqalı, vəkili Kərim sultana və naxçıvanlılara məktubu, həmçinin İrəvan xanının münşisinin naxçıvanlı naşir Molla Məhəmmədə yazılan məktubları da var.

***Musa QULİYEV,***
***AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

# Pakistan səfiri Qərbi Azərbaycan İcmasında

**Bugünlərdə Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Hayee Qərbi Azərbaycan İcmasını ziyarət edib. Diplomat İcmanın İdarə Heyətinin sədri Əziz Ələkbərli və üzvlərlə görüşərək qurumun nizamnaməsi, strukturu və fəaliyyəti haqqında məlumat alıb.**



İcmanın İdarə Heyətinin sədri Əziz Ələkbərli dost və qardaş ölkə olan Pakistanın ölkəmizdəki səfiri Bilal Hayeeni İcmada görməkdən şad olduğunu bildirib. İcma sədri pakistanlı diplomata son 200 ildə azərbaycanlıların başlarına gətirilən müsibətlər barədə danışaraq ötən əsr boyunca 4 dəfə onların öz ata-baba yurdundan, indi Ermənistan adlanan coğrafi məkandan deportasiya edilməsi, bu hadisələr zamanı soydaşlarımıza qarşı törədilmiş insanlıq əleyhinə cinayətlər barədə məlumat verib.

Qərbi azərbaycanlıların geri qayıdış hüququ ilə bağlı beynəlxalq miqyasda edilən müraciətlərə mötəbər təşkilatlar tərəfindən reaksiyaların gəlməsi də vurğulanıb. Bildirilib ki, BMT İcmanın 4 sənədini – Qayıdış Konsepsiyası da daxil olmaqla öz rəsmi sənədi kimi yayıb, UNESCO və Aİ-dən İcmaya rəsmi şəxslər tərəfindən cavablar gəlib. Beynəlxalq ictimaiyyətin dəstəyinə bundan sonra da ehtiyac var.

Səfir Bilal Hayee azərbaycanlıların yaşadığı ağrı-acıya şərik olduğunu bildirib. O Pakistanın hər zaman qardaş Azərbaycanın haqlı mübarizəsində yanında olduğunu və bundan sonra da olmağa davam edəcəyini bildirib.

***"Xalq qəzeti"***

# Mənim Zəngəzurum



*Zaman çevrilibdir bir qara yelə,*
*Elin arzuları yaralanıbdır.*
*Namərdin xəyanət qayçısı ilə*
*Mənim Zəngəzurum paralanıbdır...*

*Tikanlar boy atıb, çiçəklər solub,*
*Qartallar yurdunu qarğa, sar alıb.*
*Kolların dibində gül şehlə dolub,*
*Yolların gözünün kökü saralıb...*

*Bir vaxt Zəngəzurun kefi çağ idi,*
*Gör kimə inandıq, kimə güvəndik?*
*Xəyanət qurbanı oldu Ağudi,*
*Dəstəyird, Sofulu, Urut, Nüvədi...*

*Nə qədər doğma kənd döndü yad elə.*
*Çayların, göllərin gözləri doldu...*
*Düşdü Qafan, Gorus, Sisyan yad ələ,*
*Mehri kaftarkoslar diyarı oldu...*

*Oldu başımıza dünya niyə dar?*
*Haqsızlıq səbrimi yaman daşdırır.*
*Bir yanda Ağbulaq, Şamsız, Niyədar*
*Bir yanda Qaragöl, Qızıldaş durur...*

*Üzü də qaradır əhdi qaranın,*
*Üstümə ağrılar alayı gəlir.*
*Qafandan yüzbaşı Mehdiqaranın,*
*Gorusdan Nəbinin harayı gəlir...*

*Dönüb sahibinə Topağac, Səngər,*
*Zəngilan, Kəlbəcər qeyrət hasarı...*
*Özgə kölgəsində yatan köpəklər*
*Hürür Qubadlıya, Laçına sarı...*

*Namərd xəyallara saplanıb xəncər,*
*Düşmənlər bükülüb, yumağa dönüb.*
*Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər,*
*Çəbrayıl bir dəmir yumruğa dönüb.*

*Ulu yurd yerləri halalca paydı,*
*Sonuncu fərmana zaman qol çəkir.*
*Şərqi Zəngəzurun gözləri aydın,*
*Qərbi Zəngəzurun gözü yol çəkir...*

***Rafiq YUSİFOĞLU***

# Ədəbiyyat və publisistikamızda deportasiya ağrısı



**Azərbaycan ədəbiyyatında və publisistikasında deportasiya mövzusuna çoxsaylı əsər həsr olunub. Soydaşlarımızın Qərbi Azərbaycandan kütləvi surətdə qovulmasına, erməni millətçi quldurlarının onlara qarşı törətdiyi vəhşiliklərə həsr olunmuş məqalə və xatirələrdə, poeziya nümunələrində bu tarixi cinayətin ağrı-acısı haray qoparır, insanlığı imdada çağırır. Bu şeir və poemalarda, sənədli yazılarda Qərbi Azərbaycan faciəsi qanı axan yara timsalındadır.**

Xalq şairi Zəlimxan Yaqubun "Göyçə dərdi" dastanı ədəbiyyatımızda bizdən sonra gələn nəsillərə xalqımızın başına gətirilənləri xatırlamaq, unutmamaq üçün bir yaddaş möhürüdür. Dastanda 1988-ci ildəki ictimai-siyasi hadisələri bir qaçqının, bir yurd itirənin dilindən şair bunları deyir:

***Qaçdıq, qaçqın dedilər!***
***Köçdük, köçkün dedilər!***
***Küsdük, küskün dedilər!***
***Susduq, miskin dedilər!***

Zəngibasarda, Gümrüdə, Calaloğluda, Göyçədə, İlməzlidə, Cücəkənddə qədim tarixə malik məscidlər, dini abidələr erməni vandalizminin qurbanı olub. Şair bu vəhşilikdən dəhşətə gəlir, haray çəkir:

***Gözləri yol çəkən, Ələsgər dədə,***
***Dağlarda təklənən qəbrinə qurban!***
***Bəd gəldi bizlərə bu vaxt, bu vədə.***
***Döz, bu da zamandı, səbrinə qurban!***

Dərbənddən Təbrizə, Borçalıdan İrəvana, Qarabağdan Kərkükə qədər uzanan dərdlərimizi Zəlimxan Yaqub köçkünlüyün, didərginliyin mənəvi iztirablarını sazın "Dilqəmi"sində belə qələmə alıb:

***Göyçə dərdi göyüm-göyüm göynəyən,***
***Sızım-sızım sızıldayan yaramdı.***
***İndən belə kirpik çalmaz gözlərim,***
***İndən belə yuxu mənə haramdı.***




İnsanın son mənzili olan qəbir evinin dağılmasına, onun təhqir olunmasına rəvac verənlərə bütün bəşəriyyət nifrətlə yanaşıb, hətta onu, bu gün dünyaya atom başlıqlarının ucunda demokratiya atanlar da tənqid edib, adına beynəlxalq səviyyədə "vandalizm" deyiblər. Lakin 1988-ci ildən sonra demək olar ki, Ermənistanda yaşayan Azərbaycan türklərinin ata-babalarının qəbirləri yerlə-yeksan olunmuş və tarixdən silinmişdir.

Şair Məcnun Göyçəlinin də şeirləri deportasiya hadisələrini özündə daha canlı və obrazlı şəkildə əks etdirən ədəbi nümunələrdəndir. Bu mənada onun İntiqam Ocaqlının eyni adlı şeirinə nəzirə yazdığı "Hardasan, hardasan, ay ev yiyəsi" şeiri diqqəti cəlb edir, oxucunu daha çox düşündürür. Bu şeir təkcə yurdunu itirən Qərbi azərbaycanlılarının deyil, 50 milyonluq Azərbaycan türkünün dərdi, faciəsidir. Şair bu mənzuməsində İrəvanda, Göyçədə, Ağbabada, Dərələyəzdə, Vedidə və digər qədim yurd yerlərimizdə ocaqları sönən, təndiri qalanmayan, qapısını-bacasını tikan basmış soydaşlarını haraylayır:

***Qərib gecələrə baş qoyub dağlar,***
***Çaylar hönkürtülü, bulaqlar ağlar.***
***Hər ocaq başında bir zümzümə var!***
***Döyür pəncərəni xeyli var nədən?***
***Allahlı dünyanın Allahsız səsi,***
***Hardasan, hardasan, ay ev yiyəsi?***

Gücü qələminə söykənib dərdi yazmağa çatan bir şairin "Bir soraq varmı gör Turan elindən"- deyə böyük türk dünyasına səslənişi, oğuz birliyinin yenidən var olub, bir olub yüksəlməsinə olan inamı şeirin sonuncu bəndində yurda dönmək arzusu ilə səsləşərək bədii sözün təsir dairəsini daha da gücləndirir. Aradan neçə illər keçməsinə baxmayaraq, o yurd yerlərinə dönmək, sönmüş ocaqları yandırmaq, qurumuş bulaqların gözündən öpə-öpə onları yenidən cana gətirmək tək bir şair qəlbinin yox, bütün yurd həsrətlilərinin ən böyük arzusudur.

Ədəbi publisistikamızda da deportasiya mövzusu əsas sütunlardan birini təşkil edir. Alim və publisistlərimizdən Budaq Budaqovun, Teymur Əhmədovun, Hidayətin, İsmayıl Vəliyevin, Əziz Ələkbərlinin, Qara Namazovun, İsmayıl Əliyevin, Ramiz Əsgərin, Telli Pənahqızının, Qulu Kəngərlinin, İbrahim Bayramovun, Flora Xəlilzadənin, Qafar Çaxmaqlının, Əsli Xəlilqızının, Qərib Məmmədovun, Eldar İsmayılın, Cəlal Allahverdiyevin və bir çox digər ziyalıların publisistikasında yurd yerlərinə dönmək arzusu boy verir, hətta həmin əsərlərdə özünü biruzə verən yeni-yeni ideyalar da günün tələbləri ilə səsləşir və bizə o yurd yerlərinə dönmək üçün qol-qanad verir. Bu ruhda və belə elmi sambalda olan məqalələrin toplanılıb toplu şəklində hazırlanması istiqamətində müəyyən addımlar atılıb.

Qərbi azərbaycanlıların sonuncu deportasiyası barədə sənədli-bədii materiallar toplusu olan "Didərginlər" kitabında oxuyuruq: "Bəziləri onları, millətimin iki yüz minə yaxın yerindən-yurdundan pələsəng edilmiş övladlarını sadəcə "Köçkünlər" adlandırmağı məsləhət gördülər. Xətirlərinə dəyməmək üçün belə bir yumşaq söz işlətməyi münasib bildilər. Əslində isə onlar köçməmişdilər. Onları zorla, silah gücünə, qanlarını tökə-tökə yurdlarından, yuvalarından didərgin salmışdılar.

Adam durduğu yerdə min illərlə yaşadığı, ulu əcdadlarının sümükləri basdırılmış torpaqdan köçərmi? Özü də kənd-kənd, oba-oba! Bəziləri dedilər ki, onlar "Qaçqınlar"dır. Sadəcə yurd-yuvalarını atıb gələnlərdir. Adam o zaman yurd-yuvasını ürəyi ağrımadan atıb başqa yerə gedər ki, torpağa bağlı olmasın, Vətən, el-oba qədri bilməsin, onun həsrətini çəkməsin, yurdun hər daşı, hər qarışı, axar-baxarı üçün burnunun ucu göynəməsin! Bizim xalq torpağa, Vətənə bağlı xalqdır. O, hər saatla yurdundan-yuvasından ayrılan deyil! Onları ayırdılar. Zorla, fitnə-fəsadla!".

Coğrafiyaşünas akademik Budaq Budaqov və tanınmış tarixçi Qiyasəddin Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti"nin, "Qərbi Azərbaycan ədəbi-bədii, publisistik toplusu"nun, Hidayətin "Burdan min atlı keçdi" kitabının, İ.Vəlizadə və B.Muradovun "Ermənistan azərbaycanlılarının soyqırımı" kitabının, "Didərginlər" toplusunun, Salman Qazinin "İtirdiyim yerlər" adlı şeirlər kitabının işıq üzü görməsi başımıza gələn deportasiyalara ədəbi-bədii yanaşma, dəyərləndirmə baxımından çox qiymətlidir: Şair Əli Vəkilin min zəhmət bahasına tərtib etdiyi "Ədəbi İrəvan" almanaxı Azərbaycanın müxtəlif yerlərinə səpələnmiş Ermənistandan olan şairlər və yazıçılar üçün ədəbi bir töhfədir.

Ümumiyyətlə, son dövr ədəbiyyat tariximizdə deportasiya mövzusu ədəbi polemikalara səbəb ola biləcək bir baxış bucağı kimi son dərəcə maraq doğurur. H.Hacxalılın "Biz unutmadıq", "Quşçuda Ağbaba yallısı, Göyçə həsrəti" kimi publisistik yazılarında və şeirlərində yurda dönmək arzusu daha qabarıq şəkildə özünü göstərir. Bu mənada deportasiya antologiyasını yaratmaq üçün əlimizdə xeyli material var və biz bu antologiya vasitəsilə gələcək nəsillərimizlə keçmişimiz arasında əbədiyaşar bir körpünün əsasını qoymuş olarıq.

Deportasiyaya həsr olunmuş ədəbi-bədii nümunələrin müxtəlif dillərə tərcümə olunması, həmin əsərlərin qəhrəmanlarına abidələrin ucaldılması, onların bir çox ölkələrdə yayımlanması da beynəlxalq ictimaiyyət qarşısında bizim haqlı mövqeyimizin müdafiə olunmasına xidmət edən bir vasitə kimi dəyərləndirilə bilər.

***UĞUR***

Vaqif Poeziya Günləri

# Qədim alətlərin “Dövri-səda”sı





**Vaqif Poeziya Günləri çərçivəsində Şuşada Əməkdar artist Vüqar Camalzadənin Ədvar sistemi üzrə bəstələdiyi 8 musiqinin Qədim Musiqi Alətləri Ansamblının ifasında təqdimatı maraqla qarşılanıb.**

Şərq musiqisində “sistemçilik” adı ilə məşhur məktəbin banisi olan Səfiəddin Urməvinin yaradıcılıq nailiyyətlərindən biri də Ədvardır. Bu vasitə ilə Azərbaycan, eləcə də bütün Şərq musiqisinin əsasını təşkil edən səs kompleksləri sistemi qaydaya salınır.

Konsertdə Xalq artistləri Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar artist Fərqanə Qasımova, xanəndələr Rövşən Məmmədov, Hüseyn Məlikov, Aysel İbrahimova və digərləri Molla Pənah Vaqifin qəzəllərini, eləcə də Nizami Gəncəvi, Xəqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mir Həmzə Nigari, Mir Möhsüm Nəvvab, Şah İsmayıl Xətainin ölməz əsərlərindən parçalar səsləndiriblər. Hər ifadan əvvəl isə qiraətçilər qəzəllərdən parçalar təqdim ediblər.

İncəsənət ustalarının bir-birindən maraqlı ifaları izləyicilərin zövqünü oxşayıb.

*“Xalq qəzeti”*

# Türk dünyasının mədəniyyət paytaxtının möhtəşəm poeziya bayramı



**Söz, sənət adamları yenə də Şuşada – bu il “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilmiş şəhərdə toplaşıblar. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə burada növbəti Vaqif Poeziya Günləri keçirilib.**

XVIII əsrdə Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri olmuş məşhur siyasi və ictimai xadim, görkəmli şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi önündə düzənlənən poeziya bayramı, konsertlər, sərgilər, kitab təqdimatları hər kəsə xoş təsir bağışlayıb. Çıxışlarda dönə-dönə vurğulanıb ki, Vaqifin ədəbi fəaliyyəti Türk dünyası üçün böyük önəm kəsb edib, buna görə də onun adına bağlanan poeziya günləri şairin ruhunun şadlığı üçündür. Bu günlərdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən onun haqqında buraxılmış “Özü vəzir, sözü şah” adlı kitabda da yazıldığı kimi, Vaqif yaşayır və daim türk xalqları ilə bir yerdədir.

İyulun 13-də Vaqifin doğulduğu Qazax rayonunun Yuxarı Salahlı kəndindən start götürərək gəlib Şuşada dayanan söz-sənət karvanının sədaları ətraf dağlarda əks-səda verərək dostları sevindirib, düşmənləri xar eləyib. Dövlət və hökumət nümayəndələrinin, respublikanın tanınmış elm və mədəniyyət xadimlərinin, yaşlı və gənc yazarların iştirak etdikləri tədbirin açılış mərasimində Azərbaycan Yazıçılar Birliyi sədrinin birinci müavini, Xalq yazıçısı Çingiz Abdullayev doğru olaraq qeyd edib ki, Şuşaya gəlmək istəyən çoxdur, çünki, Şuşa Azərbaycanın ürəyidir.

Şuşada “Şükür” namazı qılmasından məmnunluğunu bildirən Türk Ədəbiyyat Vəqfinin rəhbəri Serhad Kabaklı böyük fərəhlə bildirib ki, Vaqif Poeziya Günlərindən aldığı unudulmaz hissləri ürəyində Türkiyəyə daşıyacaq və bundan çox qürurludur.

Şuşada gündüzün ömrünü “uzadan” bayram tədbirləri bir-birini əvəz edib. Srağagünkü tədbirlər axşam saatlarında şəhərin sevilən məkanlarından birində – Xan qızı Natəvanın evi qarşısında musiqili proqramlar və qiraət saatları ilə tamamlanıb. İyulun 15-də isə Poeziya Günləri eyni vüsətlə davam edib.

***Əli ƏLİYEV, “Xalq qəzeti”***

# “Vətənim Qarabağ” poeziya saatları







**Dünən Poeziya Günləri çərçivəsində daha bir tədbir – “Vətənim Qarabağ” adlı poeziya saatları təşkil olunub.**

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi tədbirin açılışında çıxış edərək, poeziya saatlarının Vaqif Poeziya günlərinin ana xəttini təşkil etdiyini bildirib. O, qeyd edib ki, hər il Şuşada ənənə halını almış poeziya günlərinin təşkili mədəniyyətimiz və ədəbiyyatımız üçün böyük önəm kəsb edir.

TÜRKSOY Yazarlar Birliyinin sədr müavini, şair-tərcüməçi Səlim Babullaoğlu deyib ki, hər dəfə gözəl, mübarək Şuşa torpağında olmaq böyük məmnuniyyətdir: “Biz bu məmnuniyyətə doğru həm Ali Baş Komandan, həm də ordumuzla uzun yol gəlmişik və bu prosesdə bizə qardaşlarımız, dostlarımız dəstək olublar. 44 günlük savaş günlərində bizim yaxın-uzaq ölkələrdə yaşayan həmkarlarımız, dostlarımız Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında xeyli böyük işlər görüblər. Bunlardan biri əlbəttə ki, həmişə Azərbaycanın yanında olan Türkiyə Cümhuriyyəti və qardaş ölkənin dəyərli ziyalılarıdır.

Sonra çağdaş Türkiyə nəsrinin tanınmış nümayəndəsi və peşəkar tərcüməçi Ömer Küçük Mehmetoğluya Turan birliyi ideyasına xidmətlərinə görə layiq görüldüyü “Bəxtiyar Vahabzadə” mükafatı təqdim olunub. Ömer Mehmetoğlu göstərilən etimada görə Azərbaycan Yazıçılar Birliyinə təşəkkür edib.

Xalq şairi Vahid Əziz çıxışında deyib: “Biz 30 il sınağa çəkildik, bu illər bir an da olsun müqəddəs yurd yerlərimizi, Qarabağımızı unutmadıq, daim bu günü düşündük və arzuladıq. Şükürlər olsun ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz bu həsrətə, nisgilə son qoydu. Bu gün Azərbaycanın müqəddəs şəhərində belə bir möhtəşəm tədbirin keçirilməsi bir daha dövlətimizin gücünü, qüvvəsini, ordumuzun yenilməzliyini göstərir”.

Ardınca yazıçı Seyran Səxavət, şairlər Barat Vüsal, Qəşəm Nəcəfzadə, Əlisəmid Kür, Əkbər Qoşalı, tərcüməçi İan Perart, türkiyəli şair Serhad Kabaklı, Özbəkistanın Xalq şairi Xurşud Davron və digərləri çıxış edərək Vaqif Poeziya Günlərinin əhəmiyyətindən danışıb, fikirlərini bölüşüb, vətənpərvərlik ruhunda və Şuşa haqqında şeirlərini səsləndiriblər.

***

İkinci poeziya saatında aparıcı şair İbrahim İlyaslı olub. O qeyd edib ki, hər zaman olduğu kimi, bu dəfə də poeziya günləri Şuşada yüksək səviyyədə keçirilir. Sonra söz şairlərə verilib.

Poeziya saatında şairlər Bəsti Əlibəyli, Ramiz Babayev, Qanun Ümman, Ziyafət Yəhya, Reyhan Kənan, Şahnaz Şahin, Fəxrəddin Teyyub, Namiq Mənа, Aysel Fikrətqızı, Bilal Arallı, Xuraman Muradova və digərləri vətənpərvərlik mövzusunda qələmə aldıqları, həmçinin Şuşaya həsr etdikləri şeirlərini səsləndiriblər. Beləcə, 41 illik tarixi olan Vaqif Poeziya Günləri səs kimi, səda kimi qanad açaraq, dalğa-dalğa ətrafa yayılıb.

*“Xalq qəzeti”*

# Muğam və qiraət saatları



**Mədəniyyət paytaxtımız Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində tədbirlər gecə saatlarında da davam edib. Belə ki, Şuşanın müxtəlif məkanlarında şeirlər səsləndirilib, musiqi sədaları dalğa-dalğa ətrafa yayılıb və dağlarda əks-səda verib.**

Poeziya günlərinin ecazkar təsir bağışlayan tədbirlərindən biri “Elektron muğam saatı” adlanırdı. Tarzən və bəstəkar İbrahim Babayev milli və elektron musiqinin sintezindən ibarət ifa səsləndirib. Onun təqdimatında ənənəvi musiqimiz müasir texniki vasitələrin köməyi ilə daha dolğun şəkildə öz təcəssümünü tapıb.

Eyni zamanda, açıq səhnədə gənc qiraətçilər klassik nümunələri, şairlər isə öz şeirlərini musiqinin müşayiəti ilə improvizasiya şəklində təqdim ediblər.

*“Xalq qəzeti”*

# Axısqa türklərinin taleyi

**Erməniləri əzəli torpaqlarımıza yerləşdirən, Qərbi Azərbaycanda Ermənistan adlı respublika yaradan, sonra da onların əli ilə azərbaycanlıları doğma torpaqlarından qovduran rus imperiyası eyni taleyi axısqa türklərinə də yaşadıb.**




Əvvəcə işğal edilən ərazilərə Ərzurumdan erməniləri köçürdülər, 1830-1920-ci illərdə Axısqa türkləri zaman-zaman çoxəsrlik vətənlərindən didərgin salındı, qalanları isə 1944-cü ildə Orta Asiya çöllərinə sürgün edildilər. Qırılanlar qırıldı, qalanlarsa Özbəkistan ərazisində məskunlaşdılar . 1989-cu ildə burada da yenidən qətliama məruz qalan Axısqa türkləri hazırda dünyanın 10 ölkəsinə səpələniblər.

Nazir Əhmədlinin tərtib və təqdim etdiyi “Axısqa (Axalsıx) qəzası Xertvis nahiyəsinin kameral təsviri” kitabına 80 ilə yaxındır ki, sürgün edilərək, həsrət qaldıqları Vətən torpağı üçün yorulmadan mübarizə aparan Axısqa türklərinin Axısqa (Axalsıx) qəzasının Xertvis (Xırtız) nahiyəsi üzrə 1850-ci ildə tərtib edilmiş kameral təsvir də daxil edilmişdir.

Vaxtilə Azərbaycana da gələn Axısqa türklərinin Saatlı, Sabirabad, Xaçmaz və Quba rayonlarında məskunlaşmışlar. Saatlıda “Adıgün” və “Varxan”, Sabirabad rayonunda isə “Axısqa” adında kolxoz təşkil etmişlər. Tarixi faktlar da sübut edir ki, 1958-1961-ci illərdə Azərbaycana 10 mindən çox Axısqa türkü köçmüşdür.

Keçmiş Sovetlər Birliyində isə elliklə sürgün olunanlardan yalnız Axısqa türklərinə vətənə dönməyə içazə verilmədi. Rəsmi sənədlərdə Axısqa türkləri elliklə sürgün edilmiş xalq statusundan çıxarıldı. Krım türklərinin dönüşü başlayanda Moskva Axısqa türklərinin vətənə dönmələrini geçikdirdi, Sovetlər Birliyi dağılandan sonra isə onların dədə-baba torpaqlarında yerləşdirilməsi müstəqilliyini elan etmiş Gürcüstan Respublikasının üzərinə düşdü. Rəsmi sənədlərdə Gürcüstan bu qayıdışa etiraz etmədi, amma ölkənin iqtisadi zəifliyini bəhanə gətirərək onların mənzil və sosial şəraitinin təmin edilə bilməyəcəyini bildirdilər. Axısqadan sürgün edilənlərin türk olmadıqlarını, Osmanlı hakimiyyətinin assimilyasiya siyasəti nəticəsində türkləşmiş gürcü olduqlarını təbliğ etməyə başladılar. Hətta bu fikirlə razlaşmış olanları da ata-baba yurdlarına deyil, gürcülərin daha sıx yaşadıqları ərazilərdə yerləşdirdilər.

Tarixi sənədlər isə gürçü millətçilərinin təbliğatını və yeritdikləri siyasəti təsdiqləmir, hətta bunu inkar edən onlarca arxiv materilları var. Bu sırada Nazir Əhmədlinin tərtib və təqdim etdiyi “Axısqa (Axalsıx) qəzası Xertvis nahiyəsinin kameral təsviri” kitabının da xüsusi yeri var.

Tədqiqatçı alim Əli Şamil kitaba yazdığı ön sözdə bildirir ki, sənədlər əsl həqiqəti ortaya qoyur – məlum olur ki, rus işğalından 22 il sonra da Xırtız nahiyəsində yaşayan əhalinin böyük əksəriyyəti Axısqa türkləri olmuşdur. “Axısqa türklərinin kameral təsvirini beynəlxalq təşkilatların, Rusiya hökumətinin qarşısına qoyaraq deməliyik: dinc əhaliyə zülüm verən, onları sürgünə göndərən Rusiya hökuməti olub. Rusiya hökuməti də axısqalılara vurduğu maddi ziyanı ödəməli və onları necə olursa-osun, dədə-baba torpaqlarına qaytarmalıdır”.

***N. QƏDİMOĞLU, “Xalq qəzeti”***

# “Lənkəran xanının vəziri” Laçında

**Şuşa Dövlət Musiqili Dram Teatrı Laçın şəhərində sakinlərin qonağı olub. Yaradıcı kollektiv Laçın şəhərində tədbir və toplantılar üçün qurulmuş ça-dırda sakinlər qarşısında “Lənkəran xanının vəziri” komediyasını nümayiş etdirib.**





Teatrın direktoru, Əməkdar artist Yadigar Muradov çıxışında Laçının işğaldan öncəki gözəl günlərini, bu məkanla bağlı xatirələrindən kövrək anları yada salıb. Tamaşada baş rollardan birinin ifaçısı, əslən laçınlı Mətanət Eres Şuşa ilə Laçın arasındakı 32 kilometrlik məsafənin tarixin və taleyin hökmü ilə 31 ilə qət edildiyini söyləyib, bu günləri yaxınlaşdıran hər kəsə təşəkkürünü bildirib.

Şuşalı sənətçilərin ifasında səhnə əsəri maraqla qarşılanıb, M.F.Axundzadənin məşhur komediyasının qəhrəmanları tamaşaçıları xeyli güldürüblər. Bakı Abadlıq Xidmətinin nümayəndəsi Lalə Əliyeva müasir şəhər kimi dirçəldilən Laçının qısa müddətdə Qarabağın sənət, elm, yaradıcılıq mərkəzlərindən birinə çevriləcəyini inamını ifadə edib. O, doğma yurda qayıdanların, xüsusilə də balaca sakinlərin asudə vaxtının, mədəni istirahətinin təşkili üçün Bakı Abadlıq Xidmətinin burada müxtəlif layihələr həyata keçirmək niyyətində olduğunu deyib.

Qeyd edək ki, Laçın sakinlərinin doğma şəhərə qayıdışının başlandığı mayın 28-dən etibarən burada Qurban bayramı münasibətilə konsert, “Laçın” müstəqil teatr studiyasının “Arzular bağı” tamaşası, uşaqlar üçün dərnəklərdə əyləncələr də təşkil edilib. Yaxın zamanda Laçında ölkə teatrlarının rejissor və aktyor heyətinin qatılacağı “yay məktəbi”nin də təşkili nəzərdə tutulur.

*“Xalq qəzeti”*

Nəsil estafeti

# Mənəvi ucalıq

**Qədim yunanlar bu fikirdə idilər ki, dünyanı irəli aparan, insanı hər gün addım-addım tərəqqiyə və kamilliyə qovuşduran alimlərdir. Ona görə də bəşəriyyət dünyanın irəliləyişi, insanların mənəvi cəhətdən zənginləşməsi üçün alimlərə borcludur. Bugünkü həyatımızda da insanın rahat yaşayışının təmin edilməsi, onun maddi-mənəvi zənginliklərə sahib olması, məhz alim zehninin, fədakar zəhmətinin nəticəsidir. Elm və alimlər müasir müasir bəşər həyatının ayrılmaz bir hissəsidir.**



Elmin müxtəlif inkişaf mərhələlərində əldə olunan bütün nailiyyətlər yüksək mənəvi-əxlaqi keyfiyyətləri və dərin intellekti özündə birləşdirən şəxsiyyət fenomeni ilə bağlıdır. Nə yaxşı ki, zəngin ənənələri olan Azərbaycan elmində belə parlaq alim-şəxsiyyətlər kifayət qədərdir. Onların sırasında görkəmli filoloq-linqvist, bacarıqlı təhsil təşkilatçısı, fəal ictimai xadim olan professor Ədibə xanım Paşayevanın da adı vardır.

Ədibə Paşayeva XX əsr Azərbaycan humanitar-elmi və ədəbi düşüncəsinin görkəmli nümayəndəsi, tanınmış yazıçı, ədəbiyyatşünas alim, pedaqoq Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açmışdır. Mir Cəlal ədəbiyyat tariximizin böyük ədəbi siması, Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında əvəzedilməz xidmətlər göstərmiş bir alim olmaqla yanaşı, yüksək mənəvi-əxlaqi dəyərlər daşıyıcısı olan bir şəxsiyyət kimi tarixdə qalmışdır.

Bu gün Ədibə xanım Mir Cəlal ocağının nüfuzlu təmsilçilərindən biri, yazıçı övladı olaraq bu ailənin mənəvi və intellektual ənənələrini ləyaqətlə davam etdirir. Ədibə xanım insanlara münasibətdə yüksək mədəniyyət, ləyaqət, təmənnasızlıq və xeyirxahlıq kimi keyfiyyətləri yaşatmaqla Mir Cəlal ocağının mənəvi cazibəsini bir daha nümayiş etdirir. Onun elmə, təhsilə və yüksək mənəvi dəyərlərə səmimi bağlılığı bu cazibəni bir az da artırır.

Əsərləri böyük oxucu sevgisi qazanmış məşhur yazıçının, görkəmli ədəbiyyatşünas alim və nüfuzlu pedaqoqun ailəsində dünyaya gəlmiş Ədibə xanım alim zəhmətinin nə olduğunu yaxşı bilirdi. O, hələ uşaqlıqdan atasının qələmindən çıxan bədii əsərlərin, elmi araşdırmaların hansı ağır zəhmət hesabına başa gəldiyini görürdü. Ona görə də elm onun şüurlu seçimi idi.

Uşaqlığı çox çətin illərə düşmüşdü. 1943–1953-cü illərdə, müharibənin insanları minbir məşəqqətlə üz-üzə qoyduğu zamanlarda keçən şagirdlik dövründə kitablardakı, müəllimlərin izahlarındakı dərslərdən əlavə, onu bir ömür boyu izləyəcək böyük həyat dərsi də almışdı. Bu dərsin aşıladığı əsas keyfiyyətlər dürüstlük, vicdan, ədalət, məsuliyyət, xeyirxahlıq, məqsədyönlülük idi. Ona görə də gecə-gündüz oxuyurdu. Bir göz qırpımında keçən tələbəlik həyatından mümkün qədər səmərəli istifadə etməyə çalışırdı.

Ədibə Paşayevanın həyat və fəaliyyəti Bakı Dövlət Universiteti ilə ayrılmaz surətdə bağlıdır. BDU-nun məzunu olan Ədibə xanım ali təhsilini bitirdikdən sonra əmək fəaliyyətinə elə öz universitetində başlayıb. 1969-cu ildən 1979-cu ilə qədər burada Rus ədəbiyyatı kafedrasının müəllimi, 1979-cu ildən baş müəllimi, 1988-ci ildən Xarici tələbələr üçün rus dili kafedrasının, 2004-cü ildən BDU-da Humanitar fakültələr üzrə rus dili kafedrasının müdiri vəzifələrində çalışıb. Linqvodidaktika, rus ədəbiyyatı tarixini tədqiq edən Ədibə xanım bu illərdə bir neçə kitabını nəşr etdirib.

Professor Ə.Paşayeva hazırda BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri kimi səmərəli elmi-pedaqoji fəaliyyət göstərir. “Əməkdar müəllim” Ədibə xanım filologiya fakültəsinin aparıcı alim-pedaqoqlarından biri kimi bütün müəllimlərin və tələbələrin sevimlisidir.

Ədibə Paşayevanın ömür yolu məna və dəyəri ilə seçilir. Aldığı yüksək kübar tərbiyə ilə həyatını elmdə və təhsildə görən Ədibə xanım daim elmi axtarışlarda olmuşdur. Seçdiyi rus dili ixtisasının dərindən tədris olunması, Puşkinin, Dostoyevskinin, Çexovun, Tolstoyun dilinin gənclərə öyrədilməsi üçün ən müasir metodikalar təklif etmişdir. Bu mənada onun “Rus dili” (Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin xarici tələbələri üçün dərs vəsaiti), “Rus dili dialoqlarda” (dərs vəsaiti), “Rus dili monoloqlarda” (dərs vəsaiti), “Rus dili” (humanitar fakültələrdə oxuyan tələbələr üçün dərs vəsaiti) və digər əsərləri Azərbaycanda rus dili tədrisinin müasir səviyyədə təşkili sahəsində müstəsna rol oynamışdır.

Həyatını elmə və təhsilə bağlamış Ədibə xanımı elmi ictimaiyyət gözəl alim, novator pedaqoq, qayğıkeş və nəcib insan kimi tanıyır. Onun yaradıcılıq enerjisi və fəal vətəndaş mövqeyi Azərbaycan gəncliyi üçün örnəkdir. Ədibə xanımın müdrikliyi, kübarlığı, insanlara münasibətdə xeyirxahlığı və nikbinliyi yüksəldiyi mənəvi zirvənin təməlidir. Onu tanıyan hər kəs Vətənə təmənnasız xidmətinin, bu yolda fədakarlığının, yüksək elminin və təşkilatçılıq bacarığının şahididir. Məhz bu ümdə keyfiyyətlərinə görə Ədibə Paşayeva cəmiyyətdə dərin ehtiram qazanan nadir şəxsiyyətlərdəndir.

Bu gün sosial təsisat olaraq ailənin çox həssas mərhələyə qədəm qoyduğu müasir cəmiyyətdə Ədibə xanımın milli və ümumbəşəri dəyərlərin daşıyıcısı olan ailəsi gözəl bir örnəkdir. Onun tərbiyəsini almış və ölkəmizin layiqli vətəndaşları olan övladları milli dövlət quruculuğunda, cəmiyyətin sosial-mədəni həyatında, elmin, təhsilin inkişafında yaxından iştirak edirlər.

Milli mentalitetimizdə xanımlığın olduqca özəl bir mövqeyi vardır. Ədibə xanım Paşayeva öz mənalı həyatı, nümunəvi fəaliyyəti ilə sübut etmişdir ki, milli düşüncədə xanıma ayrılan dəyəri ailəyə dayaq olmaq dəyəri ilə vəhdətdə birləşdirmək mümkündür. Bu mənada Ədibə xanım bir çoxlarına, o cümlədən müasir gəncliyə örnək olacaq şəxsiyyətdir.

Ədibə xanımın ömür yolu elmə, mədəniyyətə, mahiyyət etibarilə milli düşüncəyə xidmətin ən böyük nümunələrindən biridir. Belə parlaq və təmənnasız xidmət onun şəxsiyyətini mənəvi ucalığa qaldırmışdır. Bu mənəvi ucalığın zirvəsinə yüksəlmiş Ədibə xanım Paşayeva bu günlərdə ömrünün 80 illik mərhələsinə qədəm qoyur. Belə bir əlamətdar gündə Ədibə xanımı səmimi qəlbdən təbrik edirəm. Arzu edirəm ki, onun bu yubileyi intellektdən, zəhmətdən, Vətən sevgisindən yoğrulmuş elmi, pedaqoji və ictimai fəaliyyətinin yeni, daha parlaq və məhsuldar mərhələsinin başlanğıcı olsun.

**İmdad BAYRAMOV,**
**Bakı Dövlət Universiteti psixologiya kafedrasının dosenti, psixologiya elmləri doktoru**

Mirzə Babayev – 110

# Musiqi yaddaşımızın “Uzaq, yaşıl ada”sı

**Xalq artisti Mirzə Babayev Azərbaycan estrada musiqisinin, o cümlədən şanson janrının banilərindən biri olub. Unudulmaz sənətkar güclü artistizmi, oxuduğu hər mahnını kiçik bir tamaşaya çevirə bilməsi, özünəməxsus obrazlar yaratması ilə fərqlənirdi.**



Mirzə Babayevin yubileyi ərəfəsində onun nəvəsi, hazırda dövlət qulluğunda çalışan Emin Babayevlə ətraflı söhbətimiz oldu və sənətkar haqqında indiyə qədər bilmədiyimiz bir çox faktları öyrəndik.

**Emin bəy dedi ki, babası İçərişəhərdə doğulub və onun musiqiyə meyl göstərməsində anası Sona Xanlarovanın böyük rolu olub. Sona xanım rəfiqələrini evə qonaq çağırıb, onlar üçün qarmon çalarmış:** “Mirzə babam böyük səhnəyə çıxmazdan öncə, 30-cu illərin əvvəllərində memarlıq təhsili aldığı Sənaye İnstitutunun bədii kollektivində çıxış edirmiş. Natəvan meydanındakı köhnə "Metropol" restoranında da oxuyurmuş. Babam institutu bitirəndən sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə də daxil olub. Musiqi ilə ciddi məşğul olana qədər həm memar, həm də rəssam kimi çalışıb. Müharibədən sonra Bakıdakı "Vətən" kinoteatrı, Gəncədə, Ağdamda bir neçə inzibati bina onun layihəsi üzrə tikilib. Nizami muzeyinin salonlarının tərtibatında da iştirak edib”.

İkinci cahan savaşında Rostov cəbhəsində döyüşlərdə iştirak etmiş Mirzə Babayev müharibədən leytenant rütbəsi və orden-medallarla qayıdıb. İlk dəfə bəstəkar Tofiq Quliyevin yaratdığı caz orkestrində çıxışları haqqında isə sənətkar belə deyib: “Tofiq olmasaydı, həyatıma memar kimi davam edəcəkdim”.

Mirzə Babayev bir çox filmlərdə aktyor kimi çıxış edib, eyni zamanda, onun kino mahnısı ifaçılığı da əhatəli olub. Bəlkə də, əksəriyyət bilmir ki, “O olmasın, bu olsun” filmində Məşədi İbadın dilindən səslənən mahnıları “Mirzə dayı” oxuyub.

Sənətkarın nəvəsi tez-tez onun çəkildiyi filmlərə baxdığını bildirdi: “Babam rollarını o qədər canlı oynayıb ki, dediyi sözlər dillər əzbərinə çevrilib. Dərviş Məstəli şah (“Dərviş Parisi partladır”), Mirişin atası (“Bəyin oğurlanması”), Meyxanaçı (“Dəli Kür”), Bəy (“Qaraca qız”) ən məşhur rollarındandır. Dərvişin ekranda göründüyü ilk epizodda oxuduğu mahnı ssenaridə yox imiş, o mahnını Tofiq Quliyev həmin rola Mirzə Babayevin çəkiləcəyini biləndən sonra yazıb”.

İstedadlı vokalçı 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, Bülbülün sinfinə qəbul edilib. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Mirzə Babayev "Liman", "Uzaq, yaşıl ada", "Kəpənək", "Gəlmədi" və digər mahnıların ilk və təkrarsız ifaçısıdır.

"Şöhrət" ordenli sənətkar həm də iki dəfə "Humay" mükafatı laureatı olub. Ümumilikdə, 40-dan çox filmə çəkilib. Özü də təkcə Azərbaycanda yox, Odessa, Daşkənd, Aşqabad kinostudiyalarında istehsal olunan filmlərdə də iştitak edib.

**Emin bəy babasının vokal imkanlarından bəhs edərkən bir maraqlı nüansa da toxundu:** “Müəllimi Bülbül onu opera müğənnisi kimi hazırlamaq istəyirmiş. Amma Tofiq Quliyev deyib ki, Mirzənin səsi estrada mahnılarının ifası üçün daha uyğundur. O, bir müddət Tofiq müəllimin Daxili İşlər Nazirliyinin nəzdində yaratdığı caz orkestrində çıxış edib. Babamın ilk estrada ifaçısı olması etiraf olunur, amma, nədənsə, caz ifaçılığından söz düşəndə adı az çəkilir. Halbuki Tofiq Quliyev həmişə musiqimizin bu mərhələsi haqqında danışanda onun adını vurğulayırdı”.

2000-ci ildə Amerikada Azərbaycan mədəniyyəti günlərində iştirak edən nümayəndə heyətinin tərkibində Mirzə Babayev də vardı. Azərbaycan müstəqillik qazanmasaydı, yəqin ki, bütün bunlar olmayacaqdı. Çünki sovet vaxtı babamın ifa tərzini, səhnə hərəkətlərini qəbul etməyənlər çox idi. Müğənnilərdən səhnədə statik olmağı tələb edirdilər. Başqa sözlə desək, dövlət müstəqilliyimiz həm də onun sənət və səhnə sərbəstliyinə yeni imkanlar açıb.

…Unudulmaz sənətkar Mirzə Babayevin səsi bu gün də qulaqlarımızda səslənir: “Kimlər gəldi, kimlər getdi bu dünyadan…”. İnamla deyə bilərik ki, o, bu dünyada ad qoyub gedənlərdən və indi “Uzaq, yaşıl ada” kimi yaddaşlarda qalanlardan biridir.

**Ə.ƏLİYEV,**
**“Xalq qəzeti”**

Turizm–2023

# “Könlümdə dağların havası qaldı...”

**Azərbaycan 2001-ci ildən BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) üzvüdür. 4 il öncə, iyun ayında Ümumdünya Turizm Təşkilatı İcraiyyə Şurasının 110-cu sessiyası Bakıda keçirilib. Tədbirdə dünyanın 37 ölkəsindən və 5 beynəlxalq təşkilatdan nümayəndələr iştirak ediblər. Bu faktlar Azərbaycanın dünya turizminə sürətli inteqrasiyasının göstəricisidir.**

Ölkəmizin güclü turizm potensialı olan dilbər guşələrindən biri də Lerik rayonudur. Düz 90 il əvvəl unudulmaz şairimiz Mikayıl Müşfiq Leriki gəzib və təəssüratlarını duyğulu misralara çevirib:





*Hər tərəf yaşıllıq, hər tərəf orman,*
*Dağların başında seyrək bir duman.*
*Ardında süzülür günün baxışı-*
*Dərədə bir çayın məxmur axışı.*
*Başqa səfası var hələ Lerikin...*

Bölgənin Bülüdül və Zərinqala kimi təbii istirahət zonaları çox məşhurdur. Əlçatmaz Kömürgöy zirvəsi dəniz səviyyəsindən 2 min 492 metr, Qızyurdu isə 2 min 433 metr yüksəklikdə göyləri dəlir. Meşələrin palıd, vələs, dəmirağac, azat, nil ağacları canlı təbiət abidələridir.

Lənkərandan üzüyuxarı qalxdıqca yolboyu neçə-neçə turist məkanı ilə rastlaşırıq. Adı ingilis dilindən tərcümədə “Ruhun dincəldiyi yer” anlamına gələn “Relaks” istirahət mərkəzində ilin bütün fəsillərində dincəlmək üçün şərait var. Müasir turizm məkanları kimi formalaşan digər mərkəzlərin adlarının isə Azərbaycan leksikonuna aid olması qançəkərlik doğurur: "Təbəssüm”, "Çənlibel”, "Meşəbəyi”, "Ağgöl”, "Qala”, "Həyat”, "Xəyal”, "Cənub”, "Dağ çayı” ...

Həm adı, həm də xidmət səviyyəsi, sözün həqiqi mənasında, təbəssüm yaradan “Təbəssüm” ailəvi istirahət mərkəzində dincəlmək xüsusilə xoşdur. Lerik adlı yaşıl tacın ecazkar bir naxışıdır “Təbəssüm”. Hər dəfə bura gələndə Efesli Heraklitin bir kəlamını xatırlayıram: “Müdriklik təbiətlə həmahəng dolanmaqdadır”. Doğrudan da, “Təbəssüm”də adam təbiətlə bağrıbadaş olur, onun müdriklik aurasına düşür. Orada çəkilən şəkillər hazır foto-açıqçalıq olur. Hər foto əlvan bir rəsm əsərinə bənzəyir.

Yerli sahibkar Akif Əliyev “Təbəssüm”ü əvvəlcə kafe kimi açmışdı. Sonra Birinci regional inkişaf proqramında “Təbəssüm”ün 50 yerlik turizm-əyləncə mərkəzi kimi genişləndirilməsi nəzərdə tutuldu.

**Mərkəzin sahibi Akif Əliyevin dedikləri:**

– Möhtərəm Prezidentimizlə buradakı ilk görüşümüzü heç zaman unutmaram. O vaxt dövlətimizin başçısı tövsiyə etdi ki, turizmi genişləndirib beynəlxalq səviyyəyə çatdıraq. Bu, bizi ruhlandırdı, xeyli iş gördük. Daha sonra, 2011-ci ildə Bakıda keçirilən beynəlxalq turizm sərgisində dövlət başçımız bizim “Təbəssüm”ə aid guşəyə yaxınlaşaraq uğurlarımızla tanış oldu, dəyərli məsləhətini verdi. Mərkəzi daha böyük həvəslə qurub-yaratdıq, ərsəyə gətirdik. Təəssüf ki, sonralar müəyyən maneələr də oldu, amma biz dayanmadıq, irəli getməyə çalışdıq. Elə keçən il nə qədər iş görmüşük, buradakı dəmir körpünü dəyişərək, memarlıq abidəsi kimi qurmuşuq. İnanırıq ki, bizə daha güclü dəstək veriləcək və biznes-planlarımızı tam reallaşdıra biləcəyik.

“Təbəssüm”də ötən ilə qədər 22 yer var idi, indi 30-a çatıb. Eyni vaxtda nahar etmək üçün yerlərin sayı artıq 154-dür. İki yeni körpü tikilib. Mətbəx müasirləşdirilib. Xidmət personalının sayı da artaraq 21 nəfərə çatıb.

Xatırlayırıq ki, fevral ayında qardaş Türkiyədə zəlzələ baş verən zaman “Təbəssüm”ün rəhbərliyi sosial şəbəkə vasitəsilə belə bir elan vermişdi: “9 kottecimiz var. Məktəb yaşlı 30 uşaq və ya 7 ailə gəlib burada məskunlaşa bilər”. Doğrudur, gələn olmadı, amma bu çağırışın özü leriklilərin həmrəylik, xeyirxahlıq amalına sadiqliyindən xəbər verir. Yeri gəlmişkən, “Təbəssüm”də şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə də diqqət və qayğı ilə yanaşılır. Dəfələrlə “Təbəssüm”də bir süfrə arxasına toplaşmış şəhid ana və bacıları cəmiyyətin onlara sayğı və qayğısını görüblər, məmnunluq duyublar. Kollektiv onların qullugunda durmağı özünə şərəf sayıb...

“Təbəssüm”ü gəzərkən bir boş yerin belə olmadığını gördük. Buranın təbii şəraiti, xidmət səviyyəsi elədir ki, bir gəlib görən bir də gəlmək istəyir. Turistlərdən, xarici qonaqlardan başqa, Lənkəran, Masallı, Cəlilabad və digər yerlərdən “Təbəssüm”ə bir neçə saatlıq istirahətə gələnlər də yetərli qədərdir. Hamı buradan məmnun qayıdır. Həm “qüdrətdən səngərli-qalalı dağlar”, kölgəli meşələr, axar-baxarlı çay vadisi, təmiz hava, həm də Cənub mətbəxinin təkrarsız təamları hər kəsi heyran qoyur.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**

# “İşə qəbul prosesində gender bərabərliyi”

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində vətəndaş cəmiyyəti institutları ilə “İşə qəbul prosesində gender bərabərliyi” mövzusunda görüş olub. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birgə təşkil olunan görüşdə nazirliyin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin əmək və məşğulluq sahəsində gender bərabərliyinin təmin edilməsi mövzusunda fikirləri dinlənilib.**



Görüşdə gender bərabərliyinin təmin edilməsi ilə bağlı Azərbaycanın fəal dövlət siyasətinə malik olduğu, 2006-cı ildə ölkədə “Gender – kişi və qadınların bərabərliyi təminatları haqqında” Qanun qəbul edildiyi vurğulanıb. Ötən dövrdə ölkəmizin BMT-nin “İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt”ına, “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyasına qoşulduğu, habelə Beynəlxalq Əmək Təşkilatının gender bərabərliyi ilə bağlı mühüm konvensiyalarını ratifikasiya etdiyi bildirilib. Milli qanunvericilikdə gender bərabərliyi ilə bağlı mütərəqqi beynəlxalq yanaşmalardan irəli gələn prinsiplərin əks olunduğu diqqətə çatdırılıb.

Ölkəmizdə əmək və məşğulluq, eləcə də işə qəbul prosesində qadın və kişilər arasında ayrı-seçkiliyə yol verilməsinin qanunla qadağan olunduğu, habelə hamilə və ya 3 yaşına çatmamış uşağı, yaxud əlil uşağı olan qadınlarla bağlı əmək qanunvericiliyindəki bir sıra güzəştlər və əlavə təminatlar qeyd olunub. Müzakirələrdə son illər aparılan sosial islahatlar, habelə əməkhaqqı islahatları, əmək qanunvericiliyinə edilmiş, o cümlədən qadınların əmək bazarına çıxış, məşğulluq imkanlarının genişləndirilməsinə yönəlmiş son dəyişikliklər diqqətə çatdırılıb.

Görüşdə işə qəbul prosesində gender bərabərliyinin təmin edilməsi ilə bağlı müzakirə aparılıb, rəy və təkliflər səsləndirilib.

**Zərifə BƏŞİRQIZI,**
**“Xalq qəzeti”**

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 147 (30263) 16 iyul 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Neftçi” yarımfinalda

**3x3 basketbol üzrə “Neftçi” komandası Dünya Qadın Seriyasının Kosovonun paytaxtı Priştinadakı mərhələsində növbəti oyununu keçirib.**



Bakı təmsilçisi dörddəbir finalda Macarıstanın “Dyor” komandası ilə üz-üzə gəlib. Qarşılaşmada komandamız 18:16 hesabı ilə qalib gələrək adını yarımfinala yazdırıb. Yarımfinalda “Nefçi”nin rəqibi Fransa millisi olacaq.

Paytaxt klubu D qrupundakı ilk matçda Niderland yığmasına 11:6, daha sonra Kosovo seçməsinə 20:9 hesabı ilə qalib gəlib. Turnirdə mübarizəni dayandıran Azərbaycan millisi isə ABŞ kollektivinə 3:22, “Dyor”a isə 9:21 hesabı ilə məğlub olub.

Qeyd edək ki, “Neftçi” bundan əvvəl Şuşa və Netanya (İsrail) mərhələlərində qalib adını qazanıb.

## Millimizin Avropa çempionatında növbəti oyunu



**Basketbol üzrə Azərbaycan millisi Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən U-20 Avropa çempionatının B divizionunda növbəti matçına çıxıb.**

Komandamız 17 və 20-ci yerlər uğrunda qarşılaşmada Slovakiya yığması ilə mübarizə aparıb. Oyun komandamızın 47:61 hesablı məğlubiyyəti ilə başa çatıb.

Qeyd edək ki, millimiz bundan əvvəl B Divizionunun C qrupunda Ukrayna, İsveç, Kosovo, Gürcüstana, həmçinin, 17 və 20-ci yerlər uğrunda qarşılaşmada Lüksemburqa uduzub.

## Komandamız Latviya yığması ilə xalları bölüşdü




**Qadın futbolçulardan ibarət komandamız Latviyadakı təlim-məşq toplanışı çərçivəsində beynəlxalq yoldaşlıq oyunu keçirib.**

Millimiz yoxlama matçında Latviya komandası ilə gücünü sınayıb. Oyun 1:1 hesabı ilə başa çatıb. Yığmamızın heyətində Alina Dorofoyeva fərqlənib.

İyulun 17-də komandalar arasında növbəti matç keçiriləcək.

***L.SABİRQIZI, “Xalq qəzeti”***

Texnologiya yenilikləri

## Telefon batareyaları “dəyişdirilən” olacaq

**Avropa İttifaqı (Aİ) Şurası telefon batareyalarının dəyişdirilə bilən olmasını tələb edən qanunlar qəbul edib. Yeni dəyişikliklər parlament və şura tərəfindən qəbul edildikdən sonra Aİ-nin “Rəsmi Jurnalı”nda dərc ediləndən 20 gün sonra qüvvəyə minəcək.**



Dəyişdirilə bilən batareyaların tətbiqi istifadəçilərə boş batareyalarını tam doldurulmuş batareyalarla əvəz etməyə imkan verəcək. Həmçinin batareyanın təkrar emalı və istifadəsinin dairəvi iqtisadiyyatı dəstəkləyəcəyi düşünülür. Parlamentdə 2027-ci ilə qədər Aİ-yə üzv ölkələrdə satılan bütün telefonların dəyişdirilə bilən batareyalara sahib olmasının vacibliyi vurğulanıb.

Qeyd edək ki, artıq “Apple” şirkəti bu qaydalara əməl edə bilmək üçün hazırlıqlara başlayıb.

***Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”***

## ABŞ Körfəzə “F-16” donanması göndərir

**Vaşinqton Hörmüz boğazı üzərində A-10 qırıcı təyyarələri uçurur və İranın neft tankerlərini ələ keçirmək cəhdlərinin artmasına cavab olaraq, bu həftənin sonunda Körfəzə yeni “F-16” donanması göndərəcək. Bu barədə cümə günü ABŞ-ın yüksəkrütbəli hərbi rəsmisi bildirib.**



Pentaqonun rəsmisi ABŞ-ın Rusiya, İran və Suriya arasında getdikcə daha da möhkəmlənən əlaqələrdən narahatlığını dilə gətirib. O əlavə edib ki, bu üç ölkə ABŞ-ı Suriyadan sıxışdırıb çıxarmaq istəyir.

Pentaqonun açıqlaması Rusiyanın Suriya səmasında təhlükəli və qeyri-peşəkar davranışına görə “F-22 Raptors” donanmasını Yaxın Şərqə göndərdikdən bir neçə həftə sonraya təsadüf edir. Birləşmiş Ştatların rəsmisi vurğulayıb: “A-10” təyyarələri artıq bir həftə yarımdır ki, Hörmüz boğazı və daha geniş Körfəz əraziləri üzərində uçur. Biz bu dəstəyi daha da gücləndirmək üçün bu həftə sonu “F-16”-ları uçurmağa başlayırıq”. Onun sözlərinə görə, yeni donanmanın göndərilməsi ABŞ-a bölgədə hansı gəmilərin üzdüyünü, nə daşıdığını və kimə məxsus olduğunu “həqiqətən yaxşı görməyə” imkan verəcək, həmçinin gəmilərin risk dərəcəsini qiymətləndirməyə şərait yaradacaq.

***S.RZAYEVA, “Xalq qəzeti”***

Maraq dünyamız

## Dünya, sən nə qəribəsən...

**Dünyamız düşündüyümüzdən daha maraqlı və rəngarəngdir. Hər gün saysız-hesabsız yenilik baş verir. Qeyri-adiliyi ilə maraq doğuran fakt və hadisələrdən bəzilərinə nəzər salaq.**



1. İdmançı startdan ilk 10 metr məsafədə yarış avtomobilini qabaqlaya bilir.
2. Kolibri geriyə uça bilən yeganə quşdur.
3. Nəhəng Komodo kərtənkələləri hətta maral və qabanlara hücum edir.
4. Əgər sarı kanareyka qırmızı bibərlə qidalanırsa, onun tüklərinin rəngi parlaq narıncıya çevrilir.
5. Balans və aerodinamik tarazlığı dəqiq saxlamaq üçün qartalın bir qanadından lələk düşəndə digər qanadından da eyni lələk düşür.
6. Qozu sındırmaq üçün onu 48 saat qaynar suya qoymaq kifayətdir.
7. Siçovul beşmərtəbəli binadan heç bir zərər görmədən yerə atıla bilər.
8. Əqrəbin üzərinə qoyulan bir damla spirt belə onu dəli edir, özünü sancaraq öldürür.
9. Ən çox adamın danışdığı dil Çin dilidir. İkinci ən çox yayılan isə ispan dilidir. İngilislər fəxri bürünc medal qazanır.
10. Orta sürətlə hərəkət edən yüklü tankerin tam dayanması üçün, təxminən, on iki dəqiqə vaxt lazımdır.

## Pilotsuz avtomobillər

**Pilotsuz avtomobillər nəqliyyatda yeni texnologiyadır. Bu avtomobillər sürücüyə ehtiyac olmadan kompüter vasitəsilə idarə olunur. Müxtəlif optik ötürücü, kamera, lidar, radar kimi ətraf mühiti mükəmməl şəkildə təhlil edə bilən sistemlərlə təchiz olunur. Məsələn, kameralar maşının yaxınlığında dayanan insanı aşkarlayır, radar həmin insanın kölgəsini hesablayıb sistemə onun tam olaraq hansı nöqtədə olduğunu bildirir. Beləliklə, avtomobil həmin insana yaxınlaşdıqda avtomatik olaraq ən təhlükəsiz məsafədə dayanır.**



“Google”, “Tesla” və “Uber” kimi böyük avtomobil şirkəti bu texnologiyanın inkişafı üzərində işləyirlər. Özünü idarə edən avtomobillər artıq yolda sınaqdan keçirilib və potensial olaraq daha təhlükəsiz, daha qənaətcil və daha rahat gediş-gəliş üsulunu nümayiş etdirir.

Beləliklə, elm və texnologiya sürətlə inkişaf edir və bəşəriyyət üçün yeni imkanlar açır. Bu gün gördüyümüz yeni texnologiyalar və elmi kəşflər dünyanı dəyişdirməyi və insanların həyatına təsir etməyi vəd edir.

## Robot cərrahlar

**Robot cərrahlar- həkimlərə mürəkkəb əməliyyatları maksimum dəqiqliklə və minimum risklə yerinə yetirməyə imkan verən ən son texnologiyadır. Bu robotlar da kompüterlə idarə olunur və ənənəvi cərrahiyyədən daha dəqiq və daha sürətli əməliyyatlar həyata keçirə bilir. Onlar ən çətin əməliyyatlar üçün nəzərdə tutulub. Məsələn, neyrocərrahiyyə, kardiologiya və onkologiyada istifadə olunur.**



Hətta uzaq məsafədən cərahiyyə əməliyyatı həyata keçirmək mümkündür. Hindistanlı cərrah dünyada ilk dəfə xəstədən 32 km uzaqlıqda olmaqla xəstənin ürəyində çətin əməliyyatı reallaşdırıb. Cərrah həkim Tejas Patel “Corindus Vascular Robotics” şirkətinin istehsalı olan “CorPath GRX” adlı cərrah robotdan istifadə edib.

Robot cərrahlarla əməliyyat xəstəyə ən qısa zamanda sağalmaq imkanı verir.

***P.ƏFƏNDİ, “Xalq qəzeti”***

## 1 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 1 yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 831 min 978 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 670 nəfər müalicə olunaraq sağalıb, 10 min 288 nəfər vəfat edib. Aktiv xəstə sayı 20 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 659, bu günə qədər isə ümumilikdə 7 milyon 654 min 889 test icra olunub.

***“Xalq qəzeti”***

## FHN maarifləndirmə tədbirləri keçirib

**Fövqəladə Hallar Nazirliyinin aidiyyəti qurumları tərəfindən fövqəladə hallarla bağlı davranış qaydaları barədə əhalinin maarifləndirilməsi məqsədilə silsilə tədbirlər keçirilib.**

Belə ki, FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin mütəxəssislərinin də iştirakı ilə Bakı Regional Mərkəzi tərəfindən Sabunçu rayonu 8 saylı Şəhər Xəstəxanası, Nizami rayonu 18 saylı Birləşmiş Şəhər Xəstəxanası və Yasamal rayonu 16 saylı Şəhər Poliklinikasında, Sumqayıt Regional Mərkəzi tərəfindən Sumqayıt şəhər 22 nömrəli körpələr evi-uşaq bağçasında, Cənub Regional Mərkəzi tərəfindən Masallı Rayon İcra Hakimiyyəti başçısının Boradigah qəsəbəsi inzibati ərazi dairəsi üzrə nümayəndəliyində, Aran Regional Mərkəzi tərəfindən Naftalan şəhər Qaşaltı-Qaraqoyunlu kənd İcra nümayəndəliyində, Şimal-qərb Regional Mərkəzi tərəfindən Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzində və Oğuz Rayon Statistika idarəsində, Qarabağ Regional Mərkəzi tərəfindən “Ağdam Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsdə və Gəncə Regional Mərkəzi tərəfindən Göygöl rayonu 1 nömrəli körpələr evi-uşaq bağçasında maarifləndirmə tədbirləri keçirilib.

Tədbirlərin keçirilməsində məqsəd baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə hadisələrlə bağlı zəruri davranış qaydaları barədə vətəndaşlara müvafiq biliklərin verilməsi olub.

***“Xalq qəzeti”***

Sağlamlıq

## Pəhrizsiz arıqlama

**Bəzən artıq çəkini itirmək üçün pəhriz işə yaramır. Yaxud bir müddətdən sonra kökəlmə geri qayıdır.**



Həkilm-diyetoloq İqor Strokovun sözlərinə görə, ideal plan 14 saatlıq ac qalmaq və hər gün 10 saat aralığında yeməkdir. O deyib ki, məsələ yeməyin miqdarını və ya növünü dəyişmək deyil. Sadəcə, yemək qəbulu intervalını tənzimləməkdir. Gün ərzində həddindən çox qəlyanaltıya görə yemək fasiləsinin orta uzunluğu 15–16 saatdır. Belə uzun müddət metabolik problemlərə səbəb olur. 10 saatdan bir yemək isə ümumi əhvalı yaxşılaşdırır.

Bəzi insanlar səhər 7, axşam saat 5-də yesələr də, bəziləri daha gec başlamağa üstünlük verə bilər. Hər kəsin həyat tərzinə uyğun vaxt seçməsi məsləhətdir.

***Z.HÜSEYNLİ, “Xalq qəzeti”***

Proqnoz

## Güclü külək əsəcək, yağış yağacaq, dolu düşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 16-da Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən səhər və axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gecəyə doğru yarımadanın bəzi yerlərində intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 26-30° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət 55-65 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-28° isti olacaq. Azərbaycanın rayonlarında şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-23°, gündüz 26-31° , dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV, “Xalq qəzeti”***

## ALLAH RƏHMƏT ELƏSİN

Binəqədi Rayon İcra Hakimiyyətinin kollektivi Milli Məclisin deputatı

**MADƏR MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə bağsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4428
SİFARİŞ 1732
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00